AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 FEVRAL 2019-cu il ŞƏNBƏ № 32 (6359) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Minimum aylıq əməkhaqqının artırılması və “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Minimum aylıq əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 180 manat müəyyən edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın;

*2.2.* Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

*2.3.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 12, maddə 2460) 1-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 fevral 2019-cu il.**

## Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ictimai əhəmiyyətli məsələlərin araşdırılması və ictimai rəyin öyrənilməsi üçün əlavə vasitə yaratmaq, bu sahədə təhlil, tədqiqat və proqnozlaşdırma işinin səmərəliliyini artırmaq, sosial tədqiqatlarda müasir informasiya texnologiyalarından və qabaqcıl elmi-metodoloji yanaşmalardan istifadəni genişləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Sosial Tədqiqatlar Mərkəzi yaradılsın.

**2.** Müəyyən edilsin ki, Sosial Tədqiqatlar Mərkəzi (bundan sonra - Mərkəz) ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**3.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Mərkəzin nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*4.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*4.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*4.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*4.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 fevral 2019-cu il.**

## İsmayıllı rayonunun Muğanlı-İsmayıllı (30 km)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Üç min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Muğanlı-İsmayıllı (30 km)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,8 milyon (üç milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş “ADA” Universitetinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 7, maddə 793; 2017, N 5, maddələr 788, 802, N 7, maddə 1364) ilə təsdiq edilmiş “ADA” Universitetinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 1.3-cü bəndə “səviyyələri” sözündən sonra “və orta ixtisas təhsili” sözləri, ikinci halda “ali” sözündən sonra “, orta ixtisas” sözləri əlavə edilsin;

*1.2.* 2.1-ci bəndin ikinci cümləsinə “institutlar” sözündən sonra “, kolleclər” sözü əlavə edilsin;

*1.3.* 5.1.2-ci yarımbəndə “ali” sözündən sonra “və orta ixtisas” sözləri əlavə edilsin;

*1.4.* 5.2.1-ci yarımbənddən “üzrə üç səviyyədən ibarət” sözləri çıxarılsın və həmin bəndə “doktorantura” sözündən sonra “, habelə orta ixtisas təhsili üzrə” sözləri əlavə edilsin;

*1.5.* 5.5-ci bəndin birinci cümləsinə “magistratura” sözündən sonra “, habelə orta ixtisas” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

## “ADA” Universitetinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli 216 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “ADA” Universitetinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli 216 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 1, maddə 29) 1-ci hissəsinə “səviyyələri” sözündən sonra “və orta ixtisas təhsili” sözləri, ikinci halda “ali” sözündən sonra “, orta ixtisas” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

## “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı” təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

*2.1.* bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

*2.2.* Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

# Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir

## *Dövlət başçısı cənab İlham Əliyev ölkədə investisiya təşviqi mexanizminin işə düşməsinin də çox ciddi islahat olduğunu vurğulayıb*

**2018-ci ildə ölkənin bütün iqtisadi göstəriciləri çox müsbət oldu. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə yatırıldı. Bu sərmayənin 11 milyard manatı qeyri-neft sektoruna qoyulan sərmayədir. Bu bir daha təsdiqləyir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir. Ölkədə aparılan islahatların nə qədər vacib olduğunu vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, çox böyük mənada islahatlar nəticəsində dünya inkişaf edir, ölkələr inkişaf edir, yeni imkanlar yaranır: “Ona görə islahat məqsədyönlü olmalıdır. Biz elə islahatlar aparırıq ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna xidmət edir”.**

Bu gün Azərbaycan ölkədə yaradılmış investisiya mühiti ilə örnək ola bilər. Bu, onunla bağlıdır ki, istər daxili, istərsə də xarici investisiyaların cəlb edilməsi üçün Azərbaycanda çox əlverişli iqtisadi, siyasi və sosial şərait yaradılıb və bu sahədə zəruri tədbirlər fasiləsiz olaraq davam etdirilir. Təhlillər göstərir ki, xarici investorlara zəmanətlərin verilməsi, pul vəsaitlərinin ölkə daxilində və ondan kənarda sərbəst hərəkəti, xarici investorların mənafelərinin qorunması, investisiya mühitini özündə ehtiva edən hüquqi bazanın təkmilləşdirilməsi və inkişafı bu qəbildən olan amillər sırasındadır.

Ölkədə investisiya təşviqi mexanizminin işə düşməsinin də çox ciddi islahat olduğunu diqqətə çəkən dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu proqram 333 layihəni əhatə edir. Onlardan 107-si 2018-ci ildə icra edilib: “İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılıb. İndi baxın, əgər biz bu mexanizmə keçməsəydik, bunu tətbiq etməsəydik, ölkə iqtisadiyyatına 2,8 milyard manat qoyulmayacaqdı”.

Azərbaycanda iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi dövlət başçısının müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə dövlət tərəfindən görülən məqsədyönlü tədbirlər Dünya Bankının “Doing Business 2019” təhlilində də öz əksini tapıb. Ölkəmiz ümumi reytinqdə yeni rekorda imza ataraq dünyada 10 ən islahatçı dövlət siyahısına daxil olub. Bu təhlil ölkəmizdə əlverişli investisiya mühitinin cəlb ediciliyinin mühüm göstəricisi olmaqla, özəl, xarici və daxili sərmayələrin iqtisadiyyatımıza, xüsusən onun qeyri-neft sahələrinə axını üçün əlavə imkanlar yaradır.

Sahibkarlığa dövlət dəstəyinin əyani göstəricisi kimi qeyd etmək yerinə düşər ki, 2018-ci il ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər verilib. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 990 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb. İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib. Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

2018-ci ildə sosial, fiziki infrastruktur və digər investisiya təyinatlı layihələrin maliyyələşdirilməsi üçün dövlət investisiya proqramı hesabına 5 milyard 64 milyon manat və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu hesabına 301 milyon manat, cəmi 5 milyard 365 milyon manat vəsait sərf edilib.



Məlumat üçün bildirək ki, Davos Forumunda ənənəvi müzakirə mövzularından olan iqtisadi və investisiya mühitinin vəziyyəti, müasir problemləri və həll yolları bu il də diqqət mərkəzində oldu. Ölkə mətbuatında qeyd edildiyi kimi, Azərbaycanda yaradılmış biznes mühitinin yüksək səviyyəsi xarici şirkət rəhbərləri tərəfindən xüsusi vurğulanır. Yanvar ayının sonlarında Azərbaycan Prezidenti İlham Əliyevlə Davosda görüşü zamanı “Procter and Gamble Europe” şirkətinin prezidenti Loik Tassel son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələr verdiyini deyib və bildirib ki, Azərbaycanda yaradılan biznes mühiti və investorlar üçün şərait başqa şirkətlər kimi, “Procter and Gamble Europe” şirkətini də bu ölkədə öz fəaliyyətini genişləndirməyə həvəsləndirir. Onu da qeyd edib ki, Azərbaycandakı mövcud biznes mühiti bu şirkətin regional mərkəz kimi Bakını seçməsini şərtləndirib.

Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən sessiyadakı çıxışında cənab İlham Əliyev bildirib ki, infrastruktura investisiya qoymaq üçün neft və qaz satışından əldə etdiyimiz gəlirləri düzgün istiqamətə yönəltməyə müvəffəq olmuşuq: “Davos Dünya İqtisadi Forumunun qiymətləndirilməsinə əsasən yolların keyfiyyətinə gəlincə, Azərbaycan dünyada 34-cü yerdə qərarlaşıb. Bunu biz neft və qaz satışından əldə etdiyimiz vəsaitlə etdik. Sonra əlbəttə ki, bu, biznes mühitinin yaradılmasına gətirib çıxardı. Çünki sizin müasir infrastrukturunuz, qazlaşdırmanız, elektrik enerjiniz, yaxşı yollarınız və magistrallarınız olduqda onda bizneslər üçün də investisiya yaratmaq daha asan olacaq. Biz bu istiqamət üzrə də işlər görmüşük. Dünya Bankının ən son “Doing Business” hesabatına əsasən Azərbaycan dünya üzrə 25-ci pillədədir və mövqeyimizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında on ən çox islahatçı ölkələr arasındayıq”.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**






# Regionların inkişafı üçüncü Dövlət Proqramı İsmayıllıya hansı nailiyyətləri verdi?



**Mirdaməd SADIQOV,**
**İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, iqtisad elmləri doktoru.**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev regionların ahəngdar, hərtərəfli sosial-iqtisadi inkişafını təmin etmək üçün "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın birincisini 2004-cü ilin fevral ayında qəbul etdi. Beləliklə, ölkə yeni yüksəktempli innovativ inkişaf mərhələsinə qədəm qoydu. Ölkə başçısının üçüncü olan "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda dediyi kimi, "Beləliklə, görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir".**

**Mən bu yazıda üçüncü Dövlət Proqramının İsmayıllıda müvəffəqiyyətlə icra olunmasının nəticələri barədə fikirlərimi bildirmək istərdim.**

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın İsmayıllıya nələr verdiyini diqqətə daha təkmil çatdırmaq üçün ilk növbədə Proqramın icrasının yekununa - 2018-ci ilə və bu ildə ölkə rəhbərinin rayona səfərinin yaratdığı ruh yüksəkliyinə istinad etməklə təhlillər aparmaq daha məqsədəuyğundur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev son 6 ildə İsmayıllıya dörd dəfə səfərə gəlib - 14 avqust 2013-cü il, 22 sentyabr 2014-cü il, 10 avqust 2016-cı il və 25-26 avqust 2018-ci il tarixlərdə. Ölkə rəhbərinin hər bir səfəri rayona 10-20 illər qədər inkişaf gətirib, sosial-iqtisadi yüksəlişi, yeni-yeni infrastruktur layihələrinin icrasını stimullaşdırıb, insanlara rahat həyat bəxş edib.

25 avqust 2018-ci il tarixdə Prezident İlham Əliyev Keyvəndi-Minkə-Şəbiyan-Bəhliyan, Kürdmaşı-Kəlbənd-Girk avtomobil yollarının, Kürdmaşı kəndi ərazisində "Buta-Qrup" MMC tərəfindən yaradılmış aqroparkın, "Azərxalça" ASC İsmayıllı filialının, Keyvəndi kəndində 1000 başlıq heyvandarlıq kompleksinin, "Azərişıq" ASC-nin yenidən qurulan 110/35/10 kilovoltluq "İsmayıllı" yarımstansiyasının açılışlarında iştirak edib.

Cənab Prezident, Birinci vitse-prezident Mehriban Əliyeva ilə birgə ötən ilki səfərinin ikinci günü - 26 avqustda qədim tarixə malik, milli sənətkarlığımızın beşiyi olan Lahıc qəsəbəsinə gəlib. Dövlətimizin başçısı və Xanımı əvvəlcə qəsəbənin sakinləri ilə görüşüb, Dəmirçi-Lahıc yolunun, 400 yerlik məktəb binasının, qəsəbəyə çəkilmiş yeni qaz xəttinin açılışını edib. Lahıcda fəaliyyət göstərən xalq sənətkarları və tanınmış misgər Nəzər Əliyevin ailəsi ilə görüşüb. Lahıca qaz kəmərinin çəkilməsi rayonun Qaraqaya, Gəndov və Namazgah kəndlərinə də rahat, təminatlı həyat bəxş edib. Əvvəlki sərəncamların icrasının nəticəsi olaraq yeni həyata qovuşmuş dağlıq şəraitdə yaşayan insanları öz doğma yurd-yuvasına yenidən qırılmaz tellərlə bağlanmışdır. Həyati əhəmiyyətli problemləri həll olunan sakinlərin məşğulluğunun artırılması və işlə təmin olunması üçün rayon icra hakimiyyəti hazırladığı xüsusi proqram əsasında layihələr həyata keçirir. İnsanlar hər an dövlət qayğısı əhatəsində, ölkə rəhbərinin diqqətində olduğunu dərindən duyur və dərk edirlər. Ölkə rəhbəri İsmayıllı sakinlərinə dərin sevgisini, qayğı və diqqətini həyati əhəmiyyət kəsb edən sərəncamlarla bir daha təsdiq edib. Cənab Prezident tarixi avqust səfərindən sonra istifadə müddətini başa vurmuş ictimai yaşayış binalarının yerində 48 mənzilli yaşayış binasının, 100 yerlik uşaq bağçasının, ikinci xalça fabrikinin, Basqal qəsəbəsində 432 yerlik məktəb binasının tikintisi, İvanovka mədəniyyət sarayının əsaslı təmiri və təchizatı barədə sərəncamlar imzalayıb.

Tarixiliyi, qədimliyi, xalq sənətkarlığı ilə tanınan Basqal haqqında Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında deyib: "Mənim sərəncamımla tarixi Basqal kəndini abadlaşdırmaq və turistləri cəlb etmək üçün çox böyük layihələrin icra olunması məqsədilə xüsusi proqram hazırlanır. Həm Basqalda yaşayan vətəndaşlar üçün, həm də turistləri cəlb etmək üçün çox gözəl şərait yaradılacaq". İnamla qeyd edilməlidir ki, bütün bunlardan sonra Basqal Azərbaycanı milli-mənəvi, maddi, etnoqrafik və tarixi dəyərləri, şəhərsalma mədəniyyəti, xalq sənətkarlığı baxımından təmsil etmək səviyyəsinə çatacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncam, göstəriş, tapşırıq və tövsiyələrinin icrasına məsuliyyətlə yanaşan İsmayıllı Rayon İcra Hakimiyyəti bölgənin hər il üçün inkişaf proqramını "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsasında hazırlayır və nəticələri də ardıcıl olaraq yüksək mərhələyə qalxır.

İlk olaraq qeyd edilməlidir ki, Dövlət Proqramının məsuliyyətlə icrasından, Proqramın verdiyi imkanlardan yararlanaraq yeni layihələrin həyata keçirilməsinin, istehsal və emal müəssisələrinin açılması nəticəsində üçüncü ildir ki, rayon büdcəsi özünümaliyyələşdirmə əsasında formalaşır. Bu vacib və çox zəruri nəticəni əldə etmək üçün hansı işlər görülüb, hansı layihələr həyata keçirilib?

<u>**Sənaye sahəsində:**</u> İsmayıllı tikiş fabriki, Diyallı bələdiyyəsi ərazisində Velosiped istehsalı zavodu, Göyçay çayı üzərində hərəsi 1,8 meqavatt gücündə 2 su-elektrik stansiyası, Xanagah kəndi yaxınlığında Dam örtükləri istehsalı müəssisəsi, İsmayıllı şəhərində 170 yerlik Xalça istehsalı fabriki və digər emal müəssisələri tikilərək istifadəyə verilib. Yeni müəssisələrin açılması yeni iş yerlərinin yaradılmasına, ailələrin gəlirinin artmasına imkan verib.

<u>**Yol təsərrüfatında:**</u> İsmayıllı-Göytəpə-Qalınçaq-Ruşan, İsmayıllı-İvanovka-Hacıhətəmli avtomobil yollarının tikintisi, İsmayıllı-Lahıc yolunun əsaslı təmiri, 12 kilometrlik Kürdmaşı-Kəlbənd-Girk yolunun əsaslı təmiri və asfaltlanması layihələri həyata keçirilib.

Yolların çəkilişi və asfaltlaşdırılmasında Dövlət Proqramında nəzərdə tutulanlarla kifayətlənilməyib, imkanlar yarandıqca, digər vacib ərazilərdə də yol-asfalt işləri görülüb. Minkə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu, Talıstan, Diyallı, Cülyan kəndlərinin giriş yolları, Sumağallı-Qalacıq yolu təmir olunub, asfaltlanıb. Bilistan kəndinə yerli imkanlar hesabına çınqıl yol çəkilib, asfaltlanması da nəzərdə tutulub.

30 kilometrlik İsmayıllı-Qaraməryəm yolu standartlara uyğun asfaltlanıb, yeddi körpü və su keçidi tikilib. Bu yoldan istifadə edən 27 min nəfər İsmayıllı sakini rahatlıq tapıb, əmək məşğulluğuna sərf edilməsi imkanları artıb. Şəhərə birləşdirilmiş Mican və İsmayıllı kəndlərinin küçələri müasir formada abadlaşdırılıb.

<u>**Elektrik təsərrüfatında:**</u> "İsmayıllı" yarımstansiyası yenidən qurulmuş, 2 ədəd hərəsi 16 meqavatt gücündə transformator quraşdırılıb, 110 KV-luq İsmayıllı hava xəttində quraşdırma işləri başa çatıb, Basqal hava xəttində 93 ədəd dayaq, 7,3 kilometr naqil dəyişdirilib. İki kənddə yarımstansiya tikilmiş 6136 ədəd yararsız dayaq dəmir və beton dayaqlarla əvəz edilib, 241 kilometr SİP-kabel çəkilib.

<u>**Qaz yanacağı təchizatında:**</u> 2014-2018-ci illərdə İsmayıllı şəhərinin 2 yaşayış massivinə, Basqal və Lahıc qəsəbələrinə, Diyallı, Xanagah, İstisu, Çayqovuşan, Qurbanəfəndi, Sumağallı, Qaraqaya, Gəndov və Namazgah kəndlərinə qaz xətti çəkilib. Qalacıq kəndinin qazlaşdırılması davam edir. Bu sayaq layihələrin icrası insanlara məişət rahatlığı və iqtisadi səmərə gətirməklə yanaşı, ekoloji tarazlığın təmin olunmasına, meşələrin qorunmasına optimal şərait yaradır. Belə təminatlı həyata qovuşan insanlar həm də yaşamaq imkanları axtarışına çıxmır, yaşadığı kəndə, qəsəbəyə və şəhərə daha çox bağlanır. Dövlət Proqramının icrası illərində çoxsaylı ailələrin əvvəlki yaşayış yerlərinə qayıdışı deyilən fikri əsaslı surətdə bir daha təsdiq edir.

<u>**Su təchizatı və kanalizasiya xidməti sahəsində:**</u> şəhərin su kanalizasiya şəbəkəsinin və çirkab suları təmizləyici qurğusunun tikintisi başa çatıb. 5 ildə daha çox su təchizatını yaxşılaşdırmaq məqsədilə 36 ədəd subartezian quyusu qazılıb, 8 ədəd quyu təmir olunub.

<u>**Çoxmənzilli binaların təmiri:**</u> 45 çoxmənzilli yaşayış binasında təmir işləri aparılıb, həyətləri abadlaşdırılıb, yaşıllıqlar salınıb. Əlillər üçün tikilmiş 27 mənzilli yaşayış evinin birinci mərtəbəsindəki mənzillər təmir edilib, qazanxanası və isitmə sistemi işlək vəziyyətə gətirilib. Abad, kommunal təminatlı, uşaq meydançaları olan məhəllələrin sayı artıb. Ehtiyac olan bir neçə ictimai yaşayış binasında vacib məişət və sanitariya şəraiti yaradılıb.

<u>**Mədəniyyət müəssisələrində görülən işlər:**</u> İsmayıllı Şəhər Mədəniyyət Mərkəzinin binası 1975-ci ildə tikiləndən sonra təmir edilməmişdi. Dövlət Proqramının icrası prosesində Mərkəzin binası ən yüksək səviyyədə təmir olunub, opera və konsert tamaşalarının təşkili tələblərinə hərtərəfli cavab verən səviyyəyə çatdırılıb. Uşaq-gənclər kitabxanasının binası da yeni dizaynda müasir üslubda təmir edilib, regionda ilk olaraq elektron uşaq kitabxanası yaradılıb. Mədəniyyət mərkəzinin milli ornamentlərlə zəngin olan əsaslı təmirindən sonra burada "Leyli və Məcnun" operası tamaşaya qoyulub, Alim Qasımov və Fərqanə Qasımovanın konserti, digər teatr tamaşaları, forumlar, müsabiqələr, gənclik tədbirləri, bayram konsertləri keçirilib.

<u>**Təhsil müəssisələrinin təmiri və tikintisi:**</u> bu sahədə həyata keçirilən layihələr təlim və tərbiyənin səmərəli təşkili, təhsilin inkişafı üçün mövcud imkanları daha da artırır. Dövlət Proqramının icrası illərində Qalınçaq kəndində 320 yerlik, Lahıc qəsəbəsində 400 yerlik, Şəbiyan və Külüllü kəndlərində 80 yerlik məktəb binaları, Yenikənd, Tağlabiyan və Gəndov kəndlərində modul tipli məktəblər tikilib.

İsmayıllı şəhəri ərazisində 140 və 100 yerlik, Sumağallı və Xəlilli kəndlərinin hər birində 40 yerlik məktəbəqədər təlim və tərbiyənin bütün tələblərinə cavab verən yeni uşaq bağçası istifadəyə verilib. Şəhər 3 saylı məktəb-liseyin əsaslı surətdə təmir olunması, isitmə sisteminin yenidən qurulması da son illərin uğurlu işləri sırasındadır. Tikilən, qurulan, yeniləşən obyektlərin sayının artması, innovativ və elektron təhsilin təşkili, informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi təhsili İsmayıllının ümumi inkişafının ən fərqli istiqamətinə çevirib. Tam orta məktəblərin məzunlarının 300-350 nəfəri hər il universitetlərə yüksək balla qəbul olunur. 600-dən yuxarı bal toplayanların sayı ildə 28-30 nəfərə çatır. 2016-cı ildə şəhər 5 saylı məktəbin, 2017-ci ildə Lahıc qəsəbə tam orta məktəbinin və 2018-ci ildə şəhər 6 saylı tam orta məktəbin məzunları (3 nəfər) ali məktəblərə 700 balla qəbul olunub. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə hər il "Təhsil bayramı" və əlaçı şagirdlərin rayon Forumu keçirilir.

Dövlət Proqramının icra olunmasına başlanan müddətdə şəhərdə Uşaq istirahət və əyləncə parkı istifadəyə verilmiş, Heydər Əliyev prospektində, Cavanşir və M.F.Axundov küçələrində yaşayış evlərinin və mağazaların dam örtüyü dəyişdirilmiş, hasarların yenidən qurulması işləri həyata keçirilmişdir. Nizami küçəsində "Soyqırımı" abidəsi qoyulmuş, abidənin ətrafı abadlaşdırılmış, Heydər Əliyev adına parkda "Yaşıl teatr" üçün səhnə tikilmiş, fəvvarələr təmir olunmuş, şəhərin S.Ə.Şirvani küçəsi ilə Məhsəti küçəsinin qovuşuğunda park salınmış, Ə.Ələkbərzadə küçəsində 2400 metr məsafəyə səki daşı düzülmüş, 2240 kvadratmetr səkiyə tamet daş döşənmiş, ümumi uzunluğu 61 kilometr olan 68 küçə asfaltlanmış, Heydər Əliyev prospektində, Ə.Ələkbərzadə, M.Orucov, Cavad Məmmədov, Rəşid Mahmudov, M.F.Axundov, Ərəstun Mahmudov, Nizami Gəncəvi, Babək, Ağahüseyn Aslanov küçələrində işıqlandırma sistemi quraşdırılmışdır.

Rayona investisiya cəlbinə diqqətlə yanaşmanın, bəzi maliyyə qurumları ilə işgüzar əlaqələrin və iş adamları üçün qanunauyğun əsasda şərait yaradılmasının nəticəsi kimi 2019-cu ildə istifadəyə veriləcək obyektlərin daha çox olacağı gözlənilir.

İsmayıllı şəhəri ərazisində 100 yerlik uşaq bağçası, 48 mənzilli yaşayış binası, Xalça fabriki, yeni bir otel, otel-biznes mərkəzi, Tircan ərazisində "Bədo" sanatoriya-istirahət mərkəzi, Basqal qəsəbəsində turizm kompleksi, Talıstan ərazisində turizm-istirahət mərkəzi, Çəmənli kəndi ərazisində fındıq zavodu, İvanovka mədəniyyət sarayı, Basqal qəsəbəsindəki məktəb binası, Kəlbənd kəndinin girəcəyində körpü və sair obyektlər rayonun sosial-iqtisadi inkişafında, insanların həyat səviyyəsinin yüksəlməsində əsaslı rol oynayacaqdır. Ərazidə yaşayan əhalinin istəklərinə cavab olan Quşencə-Zoğallıq və Təzəkənd-Ağbulaq-Qoşakənd yollarının tikintisinin başa çatdırılmasını da hamıda razılıqla gözləyir.

2014-2018-ci illərdə həyata keçirilən səmərəli tədbirlər, işə salınan iqtisadi və maliyyə resursları, əhalinin maraqlarına, rayonun təbii imkanlarına hesablanan layihələrin hazırlanması sosial-iqtisadi inkişafın yüksək artım tempini təmin edir. 2018-ci ildə ümumi məhsul buraxılışı 257 milyon 554 min manat olub. Adambaşına 2969,4 manat məhsul istehsal olunub. 2014-cü ildə isə bu rəqəmlər 182 milyon 35 min manat və 2179, 2 manat təşkil edib. Əsas kapitala investisiya qoyuluşu 2014-cü ildə 64 milyon 968,4 min manat, 2018-ci ildə isə 91 milyon 713,8 min manat olub. Adambaşına investisiya qoyuluşu 778,1 manatdan 1068,9 manata çatıb. 2017-ci ilin nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Prezident İlham Əliyev investisiya cəlbinə görə 10 rayonun müsbət işini qeyd etmişdi. İsmayıllıda hər kəs yaxşı bilir ki, rayonumuzun adı da bu onluqda çəkilib. İnvestisiya qoyuluşunun artması onun nəticəsidir ki, investorlar, iş adamları üçün İsmayıllıda qanunun imkan verdiyi səviyyədə bütün imkanlar yaradılır. İlk növbədə rayon icra hakimiyyətinin rəhbərliyi investisiya cəlbində ən maraqlı tərəf kimi çıxış edir, münbit, maneəsiz şərait yaradır, sonradan da imkan olan köməklikləri göstərir.

Dövlət Proqramının icrası illərində yeni iş yerlərinin açılmasına və işsiz əhalinin məşğulluğunun artırılmasına xüsusi diqqətlə yanaşılıb. 2014-cü ildə 1112, 2015-ci ildə 720, 2016-cı ildə 1032, 2017-ci ildə 1071 və 2018-ci ildə 1096 yeni iş yeri açılıb. Təqdir olunası haldır ki, həmin iş yerlərinin 80-90 faizi daimidir. Rəqəmlərdən bir daha aydın görünür ki, investisiya qoyuluşu, yeni-yeni istehsal və emal müəssisələri artdıqca, işsiz sakinlərin sayı azalır. Nəticə olaraq onu qeyd etməyi vacib sayıram ki, 2018-ci ildə işsizlik faizi rayon üzrə 4,7-yə enib. Rayonda işsiz sakinlərinin məşğulluğunun artırılması və işlə təmin olunması yalnız məşğulluq mərkəzinin öhdəsinə buraxılmır. Hər ilin sonunda İnzibati Ərazi Dairələrində (İƏD) təhlillər aparılır, işsizlərin sayı və iş yerlərinin açılması imkanları dəqiqləşdirilir, üzə çıxarılır və bu əsasda fəaliyyət proqramı hazırlanır, icra mexanizmi müəyyənləşdirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər "Əmək yarmarkaları" vasitəsilə daha çox reallaşdırılır. Özünüməşğulluq proqramına uyğun olaraq da son aylarda iş yerlərinin sayı artır.

**(davamı 6-cı səhifədə)**










# Prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlər həyata keçirib

**Fevralın 7-də Azərbaycan Respublikası Baş Prokurorluğunda mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı Şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2018-ci ildə görülmüş işlərin vəziyyətinə və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş kollegiya iclası keçirilib.**





AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən baş prokuror Zakir Qaralov 2018-ci ildə dünyada mövcud siyasi, iqtisadi və maliyyə böhranlarına baxmayaraq, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlətçilik siyasəti və səriştəli idarəetmə qabiliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunduğunu, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlərin yeni müstəviyə qaldırıldığını diqqətə çatdırıb.

Kollegiya iclasında 2018-ci ildə ölkədə sənaye istehsalının, qeyri-neft sektorunun, əhalinin pul gəlirlərinin artması, ölkə iqtisadiyyatına 17,2 milyard manat sərmayə qoyulmaqla 118 min daimi iş yerlərinin yaradılması xüsusi vurğulanıb. Qeyd olunub ki, ölkəmizin Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən qlobal rəqabətqabiliyyətliliyinə görə 35-ci, inklüziv inkişaf indeksinə görə isə inkişaf etməkdə olan ölkələr sırasında 3-cü yeri tutması, həmçinin “Doing Business 2019” hesabatında yeni rekorda imza ataraq dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan edilməsi, 190 ölkə sırasında 25-ci yerdə qərarlaşması ölkəmizin keçdiyi inkişaf yolunun əyani göstəricisidir.

Uğurla yola saldığımız 2018-ci ilin mühüm əhəmiyyətə malik olan ictimai-siyasi tədbirin - növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin xalqla dövlətin vəhdətinin və birliyinin əyani təsdiqi və bariz nümunəsi olmasını diqqətə çatdıran baş prokuror demokratik prinsiplərə və beynəlxalq standartlara uyğun olaraq keçirilmiş seçkidə xalqımızın yekdilliklə ölkədə mövcud əmin-amanlığın və həyata keçirilən sosial-iqtisadi siyasətin davamlılığına, xalqın rifahının və gələcəyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının sistemli və ardıcıl şəkildə qorunmasına səs verdiyini qeyd edib.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş qeyd olunması, regionda sabitliyə, xalqlarımızın firavanlığına, Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək Cənub Qaz Dəhlizinin, onun tərkib hissəsi olan TANAP layihəsinin, həmçinin Türkiyənin İzmir şəhərində inşa edilmiş STAR neft emalı zavodunun istifadəyə verilməsi, ölkəmizin qlobal nəqliyyat-logistika qovşağına çevrilməsi istiqamətində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı, üçüncü peykimizin orbitə çıxarılması ilə əlaqədar Azərbaycanın kosmik sənaye ölkələri arasında mövqeyini daha da möhkəmləndirməsi, ölkəmizin mötəbər beynəlxalq tədbirlərə və idman yarışlarına ev sahibliyi etməsi dünyada Azərbaycanın geostrateji mövqeyini daha da gücləndirməkdədir.

Xüsusi vurğulanıb ki, əldə olunan uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olub. Ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında Mehriban xanım Əliyevanın gördüyü mötəbər işlər və həyata keçirdiyi layihələr xalqımız tərəfindən dəstəklənməklə hər zaman yüksək qiymətləndirilib.

Ötən il dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü xarici siyasət tədbirləri davam etdirilməklə yanaşı, Milli Ordunun gücləndirilməsi, müasir ordu quruculuğu məqsədlərinə xidmət edən zəruri infrastrukturların yaradılması istiqamətində böyük işlər görülüb.

Silahlı Qüvvələrimizin təmas xəttində ərazilərimizin bir hissəsini erməni qəsbkarlarından azad etməsi, vətəndaşlarımızın düşmən təhdidlərindən qorunması üçün həyata keçirilmiş uğurlu Naxçıvan (Günnüt) əməliyyatı nəticəsində 11 min hektara yaxın ərazinin işğaldan azad olunması və strateji xarakter daşıyan yüksəkliklərin ələ keçirilməklə ordumuza Ermənistanı Dağlıq Qarabağla birləşdirən yola tam nəzarət etmə imkanı yaratması xüsusi vurğulanıb.

Baş prokuror diqqətə çatdırıb ki, son zamanlar antimilli destruktiv qüvvələrin fəallaşmaqla möhkəm özüllər üzərində təməli qoyulan ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönəlmiş hərəkətlərinin, icazəli mitinq keçirmək adı ilə vətəndaşların istirahət hüquqlarını, həmçinin Ümumxalq Hüzn Günündə şəhidlərimizin ruhuna hörmətsizlik edərək ictimai asayişi kobud şəkildə pozmaq cəhdlərinin, sosial şəbəkələr üzərindən etdikləri təhqir və böhtanlarının, ekstremist çağırışlarının qarşısı polis orqanları tərəfindən qətiyyətlə alınıb.

Xalqın dəstəyindən məhrum olan, nüfuzunu, sosial dayaqlarını tamamilə itirmiş, ölkəmizdə İslam dövləti yaratmaq xəyalında olan radikal-terrorçu qüvvələrlə işbirliyi quran, ermənipərəst xarici dairələr tərəfindən idarə olunmaqla qanunsuz maliyyələşən AXCP və digər radikal müxalifət partiyaların ənənəvi inkarçı və qərəzli mövqedən çıxış edərək varlıqlarını sübut etmək naminə diqqəti özlərinə cəlb etməklə gündəmdə qalmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə çalışmaları diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafı, xalqımızın rifah halının gündən-günə yaxşılaşması, xalq-iqtidar birliyinin sarsılmazlığından məyus və narahat olan, dövlətçiliyimizə qənim kəsilən, hakimiyyətə yiyələnmək üçün istənilən yola baş vurmağa, təxribatlar törətməyə hazır olan bu insanlar öz fəaliyyətlərini dağıdıcılıq planları üzərində quraraq ictimai-siyasi vəziyyəti süni şəkildə gərginləşdirməyə çalışmaları qeyd edilib. Həmçinin antimilli müxalifət düşərgəsinin təmsilçiləri və onların xaricdəki havadarlarının xalqımızı yenidən daxili çəkişmələrə, parçalanmaya və böhrana sürükləməklə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik və əmin-amanlığı pozmağa yönələn cəhdlərinin qarşısının bundan sonra da xalqımız və dövlətimiz tərəfindən qətiyyətlə alınacağı vurğulanıb.

Hesabat məruzəsində qeyd edilib ki, 2018-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu olub. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində daxili işlər və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin həyata keçirilməsi təmin olunub. Hesabat dövründə prokurorluq orqanlarının bütün səyləri, ilk növbədə dövlətimizin başçısının rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, müasir məzmunlu islahat tədbirlərinin eyni intensivliklə davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsinə, yeni iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılmasına, möhkəm nizam-intizam yaradılmaqla neqativ təzahürlərin vaxtında aradan qaldırılmasını təmin edən işlək nəzarət mexanizminin yaradılmasına istiqamətləndirilib.

Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi, yaranmasının 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyevin Sərəncamı ilə qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında, korrupsiyaya qarşı mübarizədə, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə prokurorluq orqanlarının 43 əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsi, həmçinin oktyabrın 1-də prokurorluq əməkdaşlarına və veteranlara ünvanladığı təbrik müraciətinin kollektivin böyük sevincinə səbəb olduğu qeyd edilib.

Bildirilib ki, yubileylə əlaqədar dövlətimizin başçısının göstərişi ilə Gəncə və Sumqayıt şəhər prokurorluqlarının ən müasir standartlara cavab verən yeni inzibati binaları tikilərək istifadəyə verilib, prokurorluğun keçdiyi inkişaf yoluna nəzər salınmaqla aparılan islahatlardan, görülən işlərdən bəhs olunan “Azərbaycan Prokurorluğu - bir əsrlik inkişaf tarixi” kitabının təqdimatı keçirilib, həmçinin “Azərbaycan Prokurorluğu” jurnalının xüsusi buraxılışı dərc edilib.

Kollegiya iclasında qeyd edilib ki, Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı barışmaz mübarizə ötən dövrlərdə olduğu kimi 2018-ci ildə də davam etdirilib. Bu sahədə həyata keçirilmiş kompleks tədbirlər ölkəmizə “dünyada ən islahatçı” ölkə imicini qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin etməyə imkan verib.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən yüksək göstəricilərə nail olunmaqla 431 vəzifəli şəxs barəsində 278 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib. Həmin işlər üzrə 53,3 milyon manat məbləğində maddi ziyanın ödənilməsi təmin edilməklə 34,2 milyon manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Bildirilib ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi fəaliyyətində respublikanın dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafına xüsusi önəm verib. Hesabat dövründə Baş İdarə ilə Dövlət Gömrük, Dövlət Şəhərsalma və Arxitektura komitələri, Qida Təhlükəsizliyi Agentliyi, eləcə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında aidiyyəti sahələrdə korrupsiyaya qarşı birgə mübarizənin daha səmərəli təmin edilməsi məqsədilə anlaşma memorandumları imzalanıb. Eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlar və xarici ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə əməkdaşlıq inkişaf etdirilib. Baş İdarənin səmərəli fəaliyyəti nəticəsində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi mötəbər beynəlxalq təsisatlar tərəfindən verilmiş tövsiyələrin böyük əksəriyyəti uğurla icra edilib.

Bundan başqa, dünya prokurorlarını bir qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyasının işində respublikamızın fəal iştirakı və səmərəli təmsilçiliyi nəzərə alınaraq, Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilmiş qurumun 23-cü illik konfransı və ümumi yığıncağında Azərbaycan Respublikasının Prokurorluğu xüsusi mükafatla - Assosiasiyanın fəxri sertifikatı ilə təltif edilib. Bununla yanaşı, prokurorluq orqanlarının Assosiasiyanın fəaliyyətinə vermiş olduğu töhfələr və yüksək səviyyəli işgüzar əlaqələr əsas götürələrək baş prokurorun müavini təşkilatın vitse-prezidenti vəzifəsinə seçilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə Baş Prokurorluğun Daxili İşlər Nazirliyi və digər əməliyyat qurumları ilə həyata keçirdiyi birgə səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində qeydə alınmış 159 qəsdən adam öldürmə cinayətlərindən 153 hadisənin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş və əksəriyyəti xüsusilə ağır cinayətlər olan, iki və daha çox şəxsin ölümü ilə nəticələnmiş 69 hadisənin isti izlərlə açılması təmin olunub. Qeydə alınmış 71 qəsdən adam öldürməyə cəhd cinayətlərindən 70 hadisənin açılması təmin olunmaqla, həmin cinayətlərin açılması 98,6 faiz təşkil edib.

Baş Prokurorluğun ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində respublikada böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işlərinin istintaqı müvəffəqiyyətlə aparılması diqqətə çatdırılıb. Bu işlər sırasında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı törədilmiş terror aktı, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə ümumilikdə 29 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirləri seçilib. Həmin şəxslərdən 11-i barəsində beynəlxalq axtarış elan olunmaqla hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilib, 1 nəfər barəsində isə həbsli axtarış elan edilib. Həmin cinayət işinin materiallarından 51 şəxs barəsində 6 cinayət işi ayrıca icraata ayrılaraq aidiyyəti üzrə baxılmaları üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla əlaqəli şəkildə Silahlı Qüvvələrdə cinayətkarlığa və digər hüquq pozuntularına qarşı mübarizə sahəsində səmərəli tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran baş prokuror bildirib ki, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində görülən işlər daha səmərəli olub, 2017-ci illə müqayisədə ötən il törədilmiş hərbi xidmət əleyhinə cinayətlər və qeyri-hərbi cinayətlər əhəmiyyətli dərəcədə azalıb.

Xüsusi olaraq, Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanları ilə məxfi əməkdaşlığa cəlb olunmuş bir qrup hərbi qulluqçu və mülki şəxs barədə Cinayət Məcəlləsinin dövlətə xəyanət və digər maddələri ilə ibtidai istintaqı aparılmış cinayət işi qeyd edilməklə, uğurla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində düşmənin kəşfiyyat və xüsusi xidmət orqanlarının təxribat və terror fəaliyyətinin qarşısının alındığı, cinayət işi üzrə ibtidai istintaqın tamamlanaraq baxılması üçün müvafiq hərbi məhkəməyə göndərildiyi və həmin işlər üzrə cinayət məsuliyyətinə cəlb edilmiş bütün şəxslərin təqsirli bilinərək layiqli cəzalara məhkum edilmələri diqqətə çatdırılıb.

Bildirilib ki, 2018-ci ildə Bakı Şəhər Prokurorluğu tərəfindən cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində Bakı Şəhər Baş Polis İdarəsi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə səmərəli fəaliyyət nəticəsində müsbət göstəricilər əldə edilib, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarət artırılıb, vətəndaşların müraciətlərinə baxılması, onların problemlərinin həll olunması istiqamətində müəyyən irəliləyişlər əldə olunub.

Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü olan 2017-ci il 10 fevral tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamın tələblərinin icrası istiqamətində ədliyyə və məhkəmə orqanları ilə birlikdə kompleks tədbirlər davam etdirilib, ötən illə müqayisədə respublika üzrə həbs qətimkan tədbirinin seçilməsində azalma müşahidə olunub.

Kollegiya iclasında Baş Prokurorluğun dövlət ittihamının müdafiəsi üzrə idarəsi tərəfindən məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının qorunmasının, insanların azadlıq hüququnun lüzumsuz məhdudlaşdırılmamasının təmin edilməsi, pozuntulara yol vermiş prokuror, müstəntiq və təhqiqatçılar barədə xüsusi qərarların çıxarılmasında prinsipiallıq nümayiş etdirilməsi əsas vəzifə kimi müəyyənləşdirilməklə qısa zamanda bütün mənfi təzahürlərin qarşısı alınması barədə tapşırıq verilib.

Prezident İlham Əliyevin dövlət gənclər siyasəti çərçivəsində ölkəmizdə həyata keçirilən mütərəqqi tədbirləri diqqətə çatdıran baş prokuror 2002-ci ildən başlayaraq prokurorluq orqanlarının vakant vəzifələrinin obyektiv meyarlarla və şəffaf prosedurlar əsasında gənc hüquqşünaslarla komplektləşdirilməsinin təmin edilməsi məqsədilə sağlam mənəviyyatlı, dövlətçiliyə sadiq, qanunun aliliyinə və milli dəyərlərə hörmətlə yanaşan, müasir dünyagörüşlü işçilərlə komplektləşdirildiyini qeyd edib. İndiyədək keçirilmiş 19 müsabiqə üzrə 873 namizədin, o cümlədən 2018-ci ildə 85 nəfərin qulluğa qəbul edilməklə onların prokurorluğun kadr tərkibinin 67 faizini təşkil etdiyi diqqətə çatdırılıb.

Eyni zamanda, Baş Prokurorluq üzrə təsdiq edilmiş “Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında” Təlimata əsasən ali təhsil müəssisələrinin hüquqşünaslıq ixtisası üzrə təhsilini davam etdirən tələbələrinin könüllü ictimai əsaslarla prokurorluqda işə cəlb edilməsi istiqamətində kadrlar idarəsi, tabe rayon (şəhər) və ərazi hərbi prokurorları tərəfindən müvafiq tədbirlərin görülməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

Vurğulanıb ki, ötən il prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, dövlət başçılarının səfərləri çərçivəsində Belarus və Tacikistan Respublikalarının prokurorluq orqanları ilə Əməkdaşlıq haqqında sazişlər imzalanmış, bir sıra dövlətlərin nümayəndə heyətləri ölkəmizdə səfərdə olublar.

Baş Prokurorluğun beynəlxalq əlaqələr idarəsinin xarici ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığı nəticəsində Daxili İşlər Nazirliyi ilə birlikdə ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 30 şəxsin tutularaq ölkəmizə ekstradisiyası həyata keçirilib, istintaqı aparılan cinayət işləri üzrə hüquqi yardım haqqında istintaq tapşırıqlarının icrası təmin edilib.

Dövlətin həyata keçirdiyi sosialyönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılıb.

Xüsusi vurğulanıb ki, vətəndaşları narahat edən məsələlərin həllinə diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Prezidenti İlham Əliyevin tələbi rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, vətəndaşların mütəmadi olaraq qəbullarının keçirilməsi daim diqqət mərkəzində saxlanılıb, şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilib.

Vətəndaş müraciətləri üzrə natamam və qeyri-obyektiv yoxlamalar aparılması, süründürməçilik hallarına yol verilməsi, əsassız qərarlar qəbul edilməsi, vətəndaşlara müraciətləri üzrə formal və səthi cavabların verilməsi, qəbullarının keçirilməsi qaydalarının pozulması kimi çatışmazlıqların hələ də mövcud olduğu nəzərə alınmaqla, bütün struktur qurumların rəhbərləri və tabe prokurorlardan “Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında” əmrin qeyd-şərtsiz icrası, müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin daha da təkmilləşdirilməsi, bu sahədə bütün neqativ halların təxirəsalınmadan aradan qaldırılması, yeni informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə edilməsi tələb olunub.

Dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilib. Qeyd edilib ki, çox ciddi tələbkarlıq və prinsipiallıq şəraitinin yaradılmasına baxmayaraq, hesabat dövründə prokurorluq orqanlarında aparılmış xidməti yoxlamalar nəticəsində 31 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib, onlardan 16-na töhmət və şiddətli töhmət elan edilib, 1 nəfər aşağı vəzifəyə keçirilib, 8 nəfər vəzifədən azad edilib, 6 nəfər isə prokurorluq orqanlarından xaric olunub.

Uzun illər ərzində aparılan islahatlar nəticəsində prokurorluq orqanlarında şəffaflığın təmin edilməsi, neqativ hallara yol vermiş şəxslərin ifşa edilməsi istiqamətində çox mühüm işlər görülməklə prokurorluğun demokratik və hüquqi cəmiyyətdəki rolunun möhkəmləndiyini qeyd edən baş prokuror bu işlərin davamı olaraq ötən il prokurorluq işçisinin adına yaraşmayan hərəkətlərə yol verdiklərinə, qanunvericilikdə nəzərdə tutulan səlahiyyətləri çərçivəsindən kənar fəaliyyətlə məşğul olduqlarına, həmçinin formalaşmış nizam-intizam qaydalarının tələblərinə riayət etmədiklərinə görə bir sıra prokurorluq işçiləri barəsində ciddi tədbirlər görüldüyünü, o cümlədən İsmayıllı rayonunun sabiq prokuroru Ü.Abbasov və rayon prokurorunun sabiq böyük köməkçisi F.Quliyevin qabaqcadan əlbir olmaqla 2 sahibkardan külli miqdarda rüşvət alması ilə əlaqədar sonuncuların həbs olunmalarını və müvafiq məhkəmə hökmü ilə azadlıqdan məhrumetmə cəzalarına məhkum edildiklərini bildirib.

Eyni zamanda, hesabat dövründə prokurorluq orqanlarında dövlət qulluqçusu kimi işləyən bəzi şəxslərin onlara həvalə olunmuş vəzifələri layiqincə yerinə yetirməməklə səlahiyyət hüdudlarından kənara çıxmaları və prokurorluğun nüfuzunu aşağı salan qeyri-prosessual münasibətlərə yol vermələri aşkarlanaraq barələrində müvafiq məsuliyyət tədbirləri görülüb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və bütün tabe prokurorlardan möhkəm nizam-intizam yaradılması məsələlərində prinsipiallığın daha da artırılması tələb olunmaqla, prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkarlanan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması hesabat ilinin əsas vəzifələrindən biri kimi qeyd edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, baş prokurorun müavini-respublika hərbi prokuroru Xanlar Vəliyev, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Bakı şəhər prokuroru İlqar Abbasov, Gəncə şəhər prokuroru Fazil Həsənəliyev və Xocalı rayon prokuroru Kamran Məmmədovun çıxışlarında 2018-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar verilməklə, “Prokurorluq haqqında” Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, işin müasir məzmunda təkmilləşdirilməsi və mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürülüb.

Kollegiya iclasına yekun vuran baş prokuror Zakir Qaralov prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcək.

**AZƏRTAC**

# Mədəniyyət naziri Tovuzda vətəndaşları qəbul edib

**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mədəniyyət naziri Əbülfəs Qarayev fevralın 8-də Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**



Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə rayondakı ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Sonra nazir Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub, tapşırıq və tövsiyələrini verib.

Qəbulda Tovuz, Ağstafa, Qazax, Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayonlarından vətəndaşların müxtəlif məsələlərə bağlı müraciətləri dinlənilib.

Tovuzdan qəbula yazılmış sakinlər Aşıq Mikayıl Azaflının 95 illik yubileyinin keçirilməsi, rayondakı Xalq teatrına milli geyimlərin verilməsi, işlə təmin olunma və digər məsələlərə bağlı xahişlərini nazirə çatdırıblar.

Ağstafa rayonundan qəbula gəlmiş vətəndaşların müraciətləri aşıq sənətinin gənc nəslə öyrədilməsi, təbliği, eləcə də saz alətinin hazırlanması üçün yer ayrılması, Nəsimi ili çərçivəsində tədbirlərin keçirilməsi, kitabxanalara böyük şairin əsərlərinin yeni nəşrlərinin, onun haqqında kitabların verilməsi, ölkəmizdə fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri arasında təcrübə mübadiləsinin aparılması barədə olub.

Qazax sakinləri rayon ərazisində fəaliyyət göstərən mədəniyyət müəssisələrdən birinə 2017-ci ildə dünyasını dəyişmiş Aşıq Ədalət Nəsibovun adının verilməsi, uşaq musiqi məktəbində yeni instrumental ifaçılıq sinfinin açılması və məktəbin musiqi alətləri ilə təchizatı, işlə təmin olunma barədə müraciət ediblər.

Şəmkir rayonunda İmadəddin Nəsiminin 650 illik yubileyinin və Cənubi Qafqazda alman məskənlərinin 200 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi, fərdi sahibkarlıq obyektində Şembook adlı kitab bölməsinin açılmasına dəstək göstərilməsi barədə də nazirə müraciət edilib.

Həmçinin Göygöl rayonu ərazisindəki alman qəbiristanlığına qoruq statusunun verilməsi, vaxtilə Göygöl şəhərində yaşamış alman icmasının nümayəndəsi Viktor Klaynın nazirliyin balansında olan evindən turistik məqsədlə istifadə və digər məsələlərə bağlı müraciətlər olunub.

Gədəbəy rayonundan qəbula gələn vətəndaşlar mədəniyyət sahəsində təcrübənin öyrənilməsi üçün xarici ölkələrə səfərlərin təşkili, aşıq sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmasının 10 illiyinin qeyd olunması, bu məqsədlə müsabiqə və festivalların keçirilməsi barədə xahiş və təkliflərini diqqətə çatdırıblar.

Daşkəsəndən qəbula gəlmiş vətəndaş kitabının nəşrinə köməklik göstərilməsini, digər sakin işarət dilində hazırladığı əyani vəsaitin eşitmə əngəlli insanların istifadəsi üçün kitabxanalara verilməsini xahiş edib.

Qəbulda müraciətlərin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

Qəbuldan sonra mətbuata açıqlama verən nazir yerlərdə vətəndaşlarla bu cür görüşlərin mədəniyyət sahəsinin inkişaf etdirilməsində əhəmiyyətini bir daha diqqətə çatdırıb. Bildirib ki, budəfəki görüşdə sakinlərin musiqi məktəblərinin işinin gücləndirilməsi, yeni fənlərin tədris olunması, kitabxana şəbəkəsinin təkmilləşdirilməsi, mədəni irs abidələrinin qorunması və digər məsələlərlə bağlı müraciətləri dinlənilib.

Əbülfəs Qarayev Prezident İlham Əliyevin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında 15 yanvar 2019-cu il tarixli Fərmanının icrası barədə də danışıb. Vurğulayıb ki, Fərmana uyğun olaraq bu sahədə geniş islahatlar aparılacaq. Bu zaman ilk növbədə insan faktoru diqqətdə saxlanılacaq, insanların öz işlərini itirməsi, kimlərinsə işdən azad olunmasından söhbət gedə bilməz. Aparılan islahatlar mədəniyyət sahəsində işlərin təkmilləşdirilməsinə, müasir texnologiyaların tətbiqinə, ümumilikdə işin səviyyəsinin yüksəldilməsinə xidmət edir.

AZƏRTAC

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Hacıqabulda vətəndaşlarla görüşüb

**Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə fevralın 8-də Hacıqabulda vətəndaşlarla görüşüb.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə nazir Ramin Quluzadə və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoyublar.

Hacıqabulla yanaşı, Şirvan şəhər, Sabirabad və Saatlı rayonlarının sakinlərinin də iştirak etdiyi görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

AZƏRTAC

# Gənclər və idman naziri Şirvanda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov fevralın 8-də Şirvan şəhərindəki Gənclər evində Şirvan, Hacıqabul, Neftçala, Saatlı, Sabirabad, Salyan şəhər və rayonlarının sakinlərini qəbul edib.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə 20-dən çox sakinin iştirak etdiyi qəbulda müraciətlər əsasən gənclər, idman, tikinti sahələri və məşğulluqla bağlı olub.

Böyük hissəsi idman sahəsinə aid olan müraciətlər fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təmin edilməsi, təmirə ehtiyacı olan idman obyektlərinin bərpası, Olimpiya İdman komplekslərinin, idman qurğularının tikintisi və təmiri, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələləri əhatə edib.

Gənclər sahəsində müraciətlər isə qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq tədbirlərdə iştirakı, yay-qış istirahət düşərgələrinin sayının artırılması, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti ilə bağlı olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

AZƏRTAC

# Mədəniyyət naziri Gəncədə olub

**Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev Gəncə şəhərində olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nazir Əbülfəs Qarayev və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhərin qədim tarix-memarlıq abidələri olan Şah Abbas və Uğurlu xan karvansaralarında aparılan əsaslı təmir-bərpa və yenidənqurma ilə əlaqədar son tamamlama işləri ilə tanış olublar.

Sonra nazir və İcra hakimiyyətinin başçısı Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasına gəliblər. Burada yeni yaradılmış Urban Mərkəzi barədə məlumat verilib. Əbülfəs Qarayev Gəncə Dövlət Filarmoniyasında fəaliyyət göstərən musiqi kollektivlərinin fəaliyyəti ilə maraqlanıb, çıxışlarını izləyib.

Göygöl Dövlət Mahnı və Rəqs Ansamblının, Kamera Orkestrinin, Xalq Çalğı Alətləri Orkestrinin, yeni yaradılmış Uşaq Rəqs Ansamblının, Xəmsə Estrada Ansamblının və xor kollektivinin fəaliyyəti barədə məlumat verilib.

Mədəniyyət naziri və şəhər icra hakimiyyətinin başçısı daha sonra Gəncə çayının sağ sahilində Gəncə Dövlət Dram Teatrının yeni binasının inşası ilə əlaqədar görülən işlərlə tanış olublar.

AZƏRTAC

# Gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət olunur

**Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir, Azərbaycan gəncliyinin hərtərəfli inkişafına, cəmiyyətin bütün sahələrində fəal iştirakına əlverişli imkanlar yaradılır. Eyni zamanda, son illər Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb, dövlətimizin başçısının təşəbbüsü ilə "Könüllü fəaliyyət haqqında" Qanun qəbul olunub, minlərlə gənc müxtəlif təşkilatlarda, o cümlədən "ASAN könüllüləri" şəbəkəsində fəaliyyətə cəlb olunmaqla cəmiyyətimizin fəal üzvlərinə çevriliblər.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dövlət siyasətinə uyğun olaraq, ədliyyə orqanlarında da gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır, mütəmadi görüşlər keçirilir. Gənclərin işlə təminatı diqqətdə saxlanılaraq son beş ildə şəffaf seçimlər əsasında 2 mindən çox gənc hüquqşünas qulluğa qəbul olunub. Onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir və bir çoxu məsul vəzifələrə irəli çəkilib.

Ümumilikdə, ədliyyə sistemində çalışan işçilərin təxminən 40 faizini gənclər təşkil edir. Hazırda qulluğa qəbulla bağlı müsabiqədə uğur qazanaraq Ədliyyə Akademiyasında keçirilmiş icbari təlimin nəticələri üzrə peşə fəaliyyətinə buraxılmış, əksəriyyəti gənclər olan daha 80-ə yaxın hüquqşünasın təyinatı məsələsinə baxılır. Eyni zamanda, ötən ilin sonunda nazirlik tərəfindən elan olunmuş növbəti açıq müsabiqədə iştirak etmək üçün 350-ə yaxın hüquqşünas ərizə ilə müraciət edib və onlarla test imtahanı keçiriləcək.

Həmçinin dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, nazirlik tərəfindən könüllülər institutunun genişləndirilməsinə, gənclərə peşə vərdişləri aşılanmasına, onların ədliyyə sistemində təcrübə keçmələrinə daim diqqət yetirilərək nazirliyin kollegiyası tərəfindən 2016-cı ilin oktyabrında "Ədliyyə orqanlarında könüllülər institutunun təşviqi üzrə əlavə tədbirlər barədə" xüsusi qərar qəbul edilib.

Bununla əlaqədar ölkəmizin müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələr qurulub, gənclərlə çoxsaylı görüşlər keçirilərək 1200-ə yaxın könüllü ədliyyə və məhkəmə fəaliyyətinə cəlb olunub. Onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər keçirilib.

Könüllülük institutunun təşviqi gənclərdə ədliyyə fəaliyyəti ilə tanışlıq, bu sahələrdə işləməyə həvəsin artırılması, onların yaradıcı və innovativ potensialının üzə çıxarılması, məşğulluğunun təmin olunmasına şəraitin yaradılması, eləcə də kadr ehtiyatının formalaşdırılması məqsədi daşıyır. Hazırda bu sahədə fəaliyyətin daha mütəşəkkil qaydada həyata keçirilməsi üçün gənclərə bilavasitə nazirliyə müraciət etmək imkanı yaradılır. Bununla əlaqədar hüquqşünaslıq və informasiya-kommunikasiya texnologiyaları ixtisasları üzrə ali təhsil müəssisələrinin bakalavr səviyyəsinin sonuncu kurslarında, habelə magistratura səviyyələrində təhsil alan gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət edilir.

Müraciətləri hr@justice.gov.az elektron ünvanı vasitəsilə və ya nazirliyin inzibati binasında (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etmək mümkündür.

Əlavə məlumatları Ədliyyə Nazirliyinin internet səhifəsindən (www.justice.gov.az) və (012) 537-05-90, 537-04-87 nömrəli telefonları vasitəsilə almaq olar.

AZƏRTAC

# Azərbaycan və Rusiya nazirləri Samur çayının üzərində yeni körpünün tikintisi ilə tanış olublar

## *Yeni körpü ölkələrimiz arasında ticarət dövriyyəsini artırmağa imkan yaradacaq*

**Fevralın 8-də Azərbaycan-Rusiya dövlət sərhədində hər iki ölkənin nümayəndə heyətləri "Yaraq-Qazmalar" sərhəd buraxılış məntəqəsində (Rusiya Federasiyası) yenidənqurma və rekonstruksiya işlərinə, "Samur" sərhəd buraxılış məntəqəsinə (Azərbaycan Respublikası) və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə baxış keçiriblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, baxışda Azərbaycan tərəfdən iqtisadiyyat naziri Şahin Mustafayev, Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya tərəfdən isə bu ölkənin iqtisadi inkişaf naziri Maksim Oreşkin, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və başqaları iştirak ediblər.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov tikintidə mövcud vəziyyət və görüləcək işlər barədə məlumat verib. Bildirilib ki, yeni körpünün inşasının bu ilin noyabrında başa çatdırılması, dekabrda isə istifadəyə verilməsi nəzərdə tutulur.

Sərhəd-keçid məntəqəsində görülən işlərlə tanışlıqdan sonra iqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə müsahibəsində bildirib ki, ölkələrimizin əlaqələri yüksək səviyyədədir və uğurla inkişaf edir. Rusiya qeyri-neft məhsullarının idxalı və ixracı üzrə Azərbaycanın ən böyük tərəfdaşıdır. Ölkələrimiz arasında ticarət dövriyyəsi ilbəil artmaqdadır, təkcə keçən il bu rəqəm 20 faizədək artıb. Bu potensial daha yüksəkdir və onun artırılması istiqamətində işlər görülür.

"Bu gün inşa olunan yeni körpüyə baxış zamanı təqdimat keçirildi. Yeni tikilən körpü yüklərin daşınması üçün daha əlverişli şərait yaradacaq və yüklərin hazırkı dayanma müddəti aradan qaldırılacaq. Yəni, sahibkarlarımızın Rusiyaya yük daşınmasına sərf etdikləri vaxt kifayət qədər azalacaq. Bu isə həm xərclərin azalmasına, həm də ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. İnşaat işlərinin xərclərinin 50 faizi Azərbaycan, 50 faizi isə Rusiya hökuməti tərəfindən ödənilib. Körpünün tikintisi uğurla davam etdirilir", - deyə Ş.Mustafayev qeyd edib.

Şahin Mustafayev bildirib ki, digər sərhəd-keçid məntəqələrindəki vəziyyət də müzakirə olunacaq və əsas diqqət bu məntəqələrdə yüklərin daha rahat və qısa müddətdə keçirilməsinə yönələcək: "Azərbaycan öz infrastrukturunu ilbəil yaxşılaşdırır. Sərhəd-keçid məntəqələrinin fəaliyyətinin səmərəliliyinin artırılması, yeni körpülərin tikintisi, avadanlıqların alınması bu tədbirlərin tərkib hissəsidir. Beləliklə, yeni körpü və quraşdırılan avadanlıqlar həm də Şimal-Cənub nəqliyyat dəhlizinin səmərəliliyinin artırılması istiqamətində atılan addımlardır".

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin qeyd edib ki, ölkələrimiz arasında iqtisadi əlaqələr uğurla inkişaf edir. Amma bu prosesi ləngidən bəzi maneələr var idi: "Buradakı köhnə körpü, infrastruktur ölkələrimiz arasında artan ticarət dövriyyəsinə cavab vermirdi. Azərbaycandan Rusiyaya, həm də İrandan Azərbaycan ərazisindən keçməklə Rusiyaya daşınmaların artdığını nəzərə alsaq, yeni tikilən körpünün böyük əhəmiyyəti olacaq. Eyni zamanda, insanların da bu məntəqələrdən rahat istifadəsi üçün hərtərəfli şərait yaradılacaq".

Xatırladaq ki, Samur çayı üzərində yeni avtomobil körpüsünün tikintisi barədə hökumətlərarası saziş 2013-cü il sentyabrın 13-də imzalanıb. Körpünün tikintisinə 2017-ci il oktyabrın 18-də başlanılıb. Yeni körpü 1957-ci ildə inşa olunmuş körpünün yerində tikilir. Uzunluğu 325,3 metr, eni 17,3 metr təşkil edəcək körpü üç hərəkət zolağından ibarət olacaq.

AZƏRTAC

# Dərbənddə Rusiya və Azərbaycan nümayəndə heyətlərinin görüşü olub

**Fevralın 8-də Rusiya Federasiyasının Dərbənd şəhərində Rusiya və Azərbaycan nümayəndə heyətlərinin görüşü keçirilib.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan tərəfindən nümayəndə heyətində İqtisadiyyat, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin, Xaçmaz və Qusar rayon icra hakimiyyətlərinin rəhbər şəxsləri, eləcə də ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu təmsil olunub. Rusiya tərəfi isə iqtisadi İnkişaf naziri Maksim Oreşkinin rəhbərliyi ilə əlaqədar qurumların nümayəndələrinin və Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikovun, Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilevin daxil olduğu heyətlə təmsil edilib.

İqtisadiyyat naziri Şahin Mustafayev xalqlarımız və ölkələrimiz arasındakı dostluğa, dövlət başçılarının siyasi iradəsinə əsaslanan yüksək səviyyəli münasibətlərin, Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin uğurla inkişaf etdiyini, ölkələrimiz arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan və Rusiya prezidentləri əlaqələrin inkişafına böyük önəm verir, dövlət başçılarının, rəsmi nümayəndə heyətlərinin və iş adamlarının qarşılıqlı səfərləri bunun əyani göstəricisidir: "Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə də birinci yerdədir. Təkcə ötən ildə iki ölkə arasında ticarət dövriyyəsi 20 faiz artıb".

Azərbaycan və Rusiya arasında nəqliyyat-tranzit sahəsində həyata keçirilən layihələr barədə məlumat verən nazir Samur çayı üzərində avtomobil körpüsünün tikintisinin iqtisadi-ticarət əlaqələrinin, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında əhəmiyyətli olacağını qeyd edib.

Görüşdə ölkələrimiz arasında energetika, sənaye, turizm, kənd təsərrüfatı, meliorasiya, gömrük, mədəniyyət, təhsil və sair sahələrdə əlaqələrin inkişaf etdiyi və əməkdaşlıq üçün böyük potensialın mövcudluğu qeyd olunub.

Rusiyanın iqtisadi inkişaf naziri M.Oreşkin qeyd edib ki, Rusiya və Azərbaycan prezidentlərinin siyasi iradəsinə əsaslanan əməkdaşlıq inkişaf edir. Nazir iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün potensialı vurğulayaraq əlaqələrin inkişaf istiqamətləri barədə fikirlərini bildirib, aparılan müzakirələrin əlaqələrin inkişafı, xüsusilə də nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli olacağını diqqətə çatdırıb. O, Samur çayı üzərində avtomobil körpüsünün tikintisinin iki ölkə arasında artan ticarət əlaqələrinin daha da genişləndirilməsi baxımından önəmini qeyd edib, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafına töhfə verəcəyini bildirib.

Görüşdə Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələrinin, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsinə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafına dair müzakirələr aparılıb.

Səfər çərçivəsində Azərbaycan və Rusiya nümayəndə heyətləri "Narın Qala" tarixi abidəsi ilə tanış olub. Nümayəndə heyətinə Dərbənd qalasının bir hissəsini təşkil edən "Narın Qala" istehkamına daxil olan tarixi memarlıq abidələri barədə məlumat verilib.

Nümayəndə heyətləri Azərbaycan ilə Rusiyanın dövlət sərhədində "Yaraq-Qazmalar", "Samur" sərhəd buraxılış məntəqələrinə və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə də baxış keçiriblər.

Qeyd edək ki, Azərbaycan və Rusiya hökumətləri arasında imzalanmış Sazişə uyğun olaraq, Azərbaycan-Rusiya dövlət sərhədində "Samur" (Azərbaycan) - "Yaraq-Qazmalar" (Rusiya) buraxılış məntəqələri ərazisində Samur çayı üzərindən avtomobil körpüsünün tikintisi davam etdirilir. Avtomobil körpüsünün tikintisi "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində reallaşdırılan mühüm layihələrdən biridir. Körpünün inşasına 2018-ci ilin fevralında başlanılıb. İki hərəkət zolaqlı yeni körpünün uzunluğu 325 metr, eni 17,3 metr olacaq. Artıq körpünün svaylarının qazılması, bünövrə və körpü dayaqlarının tikintisi tamamlanıb. Körpünün cari ildə istifadəyə verilməsi nəzərdə tutulur. Bu layihə Azərbaycanın nəqliyyat-tranzit imkanlarının reallaşmasında əhəmiyyətli olmaqla yanaşı, Azərbaycan-Rusiya əməkdaşlığına, iki ölkə arasında artan ticarət daha da genişlənməsinə əlverişli şərait yaradacaq.

AZƏRTAC

# Azərbaycanlı deputatların Rusiya Dövlət Dumasındakı çıxışları miniatür kitablarda

## *“Azerbaydjanskiye deputatı v Qosudarstvennoy dume Rossii. 1906-1917” ikicildlik miniatür kitabının təqdimatı olub*



**Fevralın 8-də Miniatür Kitab Muzeyində Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi-Prezidentin köməkçisi, tarix elmləri doktoru, professor Dilarə Seyidzadənin tədqiqatları əsasında ərsəyə gələn “Azerbaydjanskiye deputatı v Qosudarstvennoy dume Rossii. 1906-1917” ikicildlik miniatür kitabının təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, muzeyin yaradıcısı və təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova tədbiri açaraq bu təqdimatı muzey üçün əlamətdar hadisə kimi dəyərləndirib. Qeyd edib ki, kitabda dörd çağırış Rusiya Dövlət Dumasında azərbaycanlı deputatların çıxışlarının mətnləri yer alıb. Birinci cilddə 1906-1907-ci illər I və II çağırış, ikinci cilddə 1907-1917-ci illər III və IV çağırış Dövlət Dumasında azərbaycanlı deputatların çıxışları verilib. Birinci cilddə, həmçinin professor Dilarə Seyidzadənin müvafiq dövrdə azərbaycanlı deputatların Rusiya Dövlət Dumasında fəaliyyətinə dair analitik məqaləsi verilib.





### Müəllifinə qürur hissi yaşadan mövzu

Təqdimat mərasimində çıxış edən tarix elmləri doktoru, professor Dilarə Seyidzadə bildirib ki, Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etməsi nəticəsində dünya birliyi il ərzində XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş bütün hadisələrlə tanış olmaq imkanı qazanıb. Bu kitabın nəşri də ona dərin minnətdarlıq əlamətidir.

Nəşr haqqında ətraflı məlumat verən tarixçi-alim qeyd edib ki, 1905-ci ilin dekabr ayında Rusiya çarı Dövlət Dumasına seçkilər haqqında Fərman imzalayıb. Fərmana əsasən imperiya ərazisində yaşayan əhaliyə, o cümlədən Azərbaycana da Dövlət Dumasına nümayəndə seçmək hüququ verilib. Seçkilər 1905-ci il 17 oktyabr Manifestindən sonra keçirilib. O zaman Azərbaycan Bakı və Yelizavetpol (indiki Gəncə) quberniyalarından ibarət idi, eyni zamanda, Qafqazdakı bütün quberniyalar Rusiya canişinliyinin tərkibində idi. Rus çarının nümayəndəsi - canişinin bütün seçkilərə qarışmaq, seçkilərin gedişində öz düzəlişlərini etmək hüququna malik idi. O zaman ümumi razılığa əsasən Rusiya Dövlət Dumasına Azərbaycandan rus dilini mükəmməl bilən şəxsləri göndərmək qərara alınmışdı. Bu da təbii idi, çünki Dumada bütün danışıqlar rus dilində aparılırdı. 1906-cı ildə Bakı və Yelizavetpol quberniyalarında seçkilər keçirildi. Quberniyalardan Dumaya Moskva və Sankt-Peterburqun ali məktəblərində hüquq təhsili almış şəxslər seçildilər. Deputatların hüquq təhsilli olması xalqın mənafeyini müdafiə etmək baxımından çox gözəl seçim idi. Birinci çağırışda Azərbaycanı Məmmədtağı Əliyev, Əsədullabəy Muradxanov, Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhimbəy Haqverdiyev təmsil edib.

Azərbaycanlı deputatların daxil olduğu 36 nəfərdən ibarət müsəlman fraksiyasına Əlimərdan bəy Topçubaşov sədrlik edib. Azərbaycanı II Dumada Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmmədağa Şahtaxtinski, İsmayıl Tağıyev, Mustafa Mahmudov və Zeynal Zeynalov, III Dövlət Dumasında Xəlil bəy Xasməmmədov, IV Dumada Məmmədyusif Cəfərov təmsil edib.

Professor Dilarə Seyidzadə ötən əsrin 60-cı illərində Moskvada aspiranturada oxuyarkən apardığı tədqiqatlardan da söz açıb.

Qeyd edək ki, XX əsrin 60-cı illərində tarix elmi ilə məşğul olanlar daha çox beşilliklərdən, tətillərdən, üsyanlardan yazırdılar. Dilarə Seyidzadə isə 1963-cü ildə Moskvaya aspiranturaya oxumağa gedəndə vətəndaş mövqeyi nümayiş etdirərək məhz azərbaycanlı deputatların Dumada fəaliyyəti ilə bağlı dərin tədqiqat aparmağı qarşısına məqsəd qoymuşdu. Hətta o zaman Lenin kitabxanasında stenoqrafik hesabata dair bir şagird dəftəri həcmində məlumat toplaya bilməsi, kadetlərdən, oktyabristlərdən yazmaq barədə ona edilən təklif Dilarə xanımı yolundan çəkindirməyib. Onun namizədlik dissertasiyası ilə yanaşı, gərgin axtarışları sayəsində “Azərbaycan deputatları Rusiya Dövlət Dumasında” monoqrafiyası üçün material toplanıb.

“Tədqiqatımın ən yaxşı hissəsi məhz azərbaycanlı deputatlarla bağlı olan hissədir. Təsadüfi deyil ki, müsəlman Şərqində ilk demokratik respublika Azərbaycanda yaranıb. Bu, həmin böyük insanların dərin zəkası sayəsində baş tutub”, - deyə tarixçi-alim bildirib.

### Azərbaycanın səsini dünyaya çatdıran kitab

Təqdimat mərasimində “Rossotrudniçestvo” Agentliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Valentin Denisov, Xalq yazıçısı, Milli Məclisin deputatı Elmira Axundova, Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, yazıçı Natiq Rəsulzadə, Milli Məclisin deputatları Jalə Əliyeva, İlham Məmmədov, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov, Milli Məclisin şöbə müdiri Adilə Abbasova, Bakı Dövlət Universitetinin gender və psixologiya kafedrasının rəhbəri Rəna İbrahimbəyova çıxış ediblər.

Çıxışlarda Dilarə Seyidzadənin sovet dövründə apardığı tədqiqatlar cəsarətli addım kimi dəyərləndirilib. Qeyd edilib ki, təqdimatı keçirilən nəşr Azərbaycanın səsini dünyaya çatdıran kitabdır. Təsadüfi deyil ki, kitabın elektron variantını indiyə qədər 9 minədək insan oxuyub.

Vurğulanıb ki, dəyərli tarixi mənbə olan bu kitabları rus dilinin işlək olduğu ölkələrə göndərmək lazımdır.

Qeyd edək ki, “Azerbaydjanskiye deputatı v Qosudarstvennoy dume Rossii. 1906-1917” ikicildliyi “İndiqo” mətbəəsində Miniatür Kitab Muzeyi tərəfindən hər cildi 100 nüsxə olmaqla rus dilində nəşr edilib. Ölçüsü 60x70 millimetr olan kitabın I cildi 288, II cildi 340 səhifədən ibarətdir. Nəşrdə çoxlu sayda ağ-qara fotoşəkillər yer alıb.

**AZƏRTAC**

# Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu Vətənə sədaqət andı içib





**Fevralın 8-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu Vətənə sədaqət andı içib.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev və təntənəli tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.

Döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

Sonra gənc əsgərlər təntənəli surətdə hərbi and içiblər.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından andiçmə münasibətilə hərbi hissənin şəxsi heyətini və valideynləri təbrik edən general-polkovnik Mədət Quliyev zabit və əsgərlərə Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları və gənc əsgərlər hərbi marşın sədaları altında tribunanın önündən keçiblər.

Ulu Öndərin abidəsi önündə xatirə şəkli çəkdirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev əsgər valideynləri ilə görüşərək, onları bu əlamətdar gün münasibətilə bir daha təbrik edib.

Valideynlər hərbi xidmət üçün yaradılan yüksək şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirərək, övladlarına Vətənin müdafiəsində daim ayıq-sayıq dayanmağı və dövlətə sədaqətlə xidmət etməyi tövsiyə ediblər.

General-polkovnik Mədət Quliyev hərbi hissədə xidmətin nümunəvi və səmərəli təşkili, o cümlədən hərbi-texniki və döyüş sahəsində müasir nailiyyətlərin nəticələrinin mənimsənilməsi, ümumən əsgərlərin bilik və vərdişlərinin, fiziki hazırlıqlarının daha da yüksəldilməsi istiqamətində görülən işlərlə tanış olub, tövsiyə və tapşırıqlarını verib.

Qeyd edək ki, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə görülən tədbirlər respublikanın müdafiə qabiliyyətini durmadan möhkəmləndirir, Silahlı Qüvvələrin hərbi və hərbi-texniki potensialını gücləndirir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Bütün bunlar dövlət səviyyəsində ordu quruculuğu üzrə aparılan məqsədyönlü siyasətin nəticəsidir.

Ölkəmizdə gənclər arasında hərbi-vətənpərvərlik ruhu da çox yüksəkdir. Müasir Azərbaycan Ordusunda xidmətləri ilə fəxr edən gənclərimiz Vətən uğrunda canlarından belə keçməyə hazırdırlar.

**AZƏRTAC**

# Minimum aylıq əməkhaqqının artırılmasından 600 minədək vətəndaşın faydalanacağı gözlənilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Minimum aylıq əməkhaqqının artırılması və “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamına dəyişiklik edilməsi barədə” 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə minimum əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırılıb.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ramil Hüseyn AZƏRTAC-a bildirib ki, ölkəmizdə işçilərin maddi-sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin təmin edilməsi aparılan sosial-iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Məhz sözügedən Sərəncam da bu məqsədlərə xidmət edir və ondan 600 minədək vətəndaşın faydalanacağı gözlənilir: “Prezidentin Sərəncamı ilə minimum aylıq əməkhaqqının 38,4 faiz artırılması əhalinin gəlirlərinin artırılması, rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində növbəti mühüm addımdır. Minimum əməkhaqqının hazırkı artımı birbaşa olaraq 600 minədək insanı əhatə edəcək. Belə ki, dövlət sektorunda işləyən 450 min nəfər və özəl sektorda işləyən 150 min nəfər bu Sərəncamdan faydalanacaq. Yəni dövlət sektoru üzrə 450 min işçinin əməkhaqları 30 faiz, özəl sektor üzrə 150 min işçinin əməkhaqları 15-20 faiz artacaq. Bununla yanaşı vergi və sığorta yığımları 150-200 milyon manat artacaq. Xüsusən də bu artım nəticəsində qadınların orta aylıq əməkhaqqı kişilərin orta əməkhaqqına yaxınlaşacaq.

Bildiyiniz kimi son illər minimum aylıq əməkhaqqının məbləği davamlı olaraq artırılır. 2004-cü illə müqayisədə minimum əməkhaqqı 6,5 dəfə artaraq 2018-ci ildə 130 manat təşkil edib. Yeni Sərəncamla isə minimum aylıq əməkhaqqının məbləği əhəmiyyətli dərəcə artıb və minimum aylıq əməkhaqqı yaşayış minimumu ilə bərabərləşib. Bildiyiniz kimi ölkə üzrə minimum aylıq əməkhaqqı 130 manat, yaşayış minimumu 180 manat, ehtiyac meyarı 143 manat idi. Ölkə üzrə 400 min şəxs 180 manatdan az əməkhaqqı aldı, onların 67 faizi, yəni 270 mini dövlət sektorunda çalışır. Bu Sərəncamdan sonra isə minimum aylıq əməkhaqqı yaşayış minimumuna bərabərləşdi və orta əməkhaqqının 33 faizini təşkil etdi. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il 10 ay ərzində isə 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Eyni zamanda ölkə iqtisadiyyatının güclənməsi ilə qarşıdakı illərdə minimum aylıq əməkhaqqının daha da artırılacağı gözlənilir”.

Ramil Hüseyn qeyd edib ki, minimum əməkhaqqının artımı əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsir göstərəcək. Eyni zamanda nəzərə alınmalıdır ki, Əmək Məcəlləsinə əsasən müxtəlif amillərə görə işçilərin əməkhaqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əməkhaqqı miqdarından az əməkhaqqı verilməsi qadağan edilir.

Qeyd edək ki, sözügedən Sərəncamla Nazirlər Kabinetinə tapşırılıb ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın. Həmçinin Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**AZƏRTAC**

# Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzində “Xocalı faciəsi” ilə bağlı Mətbuat Konfransı





Bu günlərdə ölkəmizin hər yerində, qardaş Türkiyədə və Azərbaycanımızın yaxın dostu olan digər ölkələrdə Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş çoxsaylı yığıncaqlar, konfranslar və görüşlər keçirilir. Belə tədbirlərdən biri də 8 fevral 2019-cu ildə Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İB-də Türkiyədə salınmış Xocalı soyqırımı parkının və “Ana fəryadı” abidəsinin açılış mərasimi ilə bağlı Mətbuat Konfransı keçirildi.

Tədbirdə İNK İH-in sədri, DAMM İB-nin I vitse-prezidenti, SİM İB-nin rəhbəri, tanınmış ictimai xadim Rasim Məmmədov çıxış edərək onun başçılığı ilə bir qrup QHT və media nümayəndələri rəhbərlərinin, DAMM İB-nin fəxri vitse-prezidenti, Xalq artisti Ramiz Quliyev, şəhid ailələrinin nümayəndələri, eyni zamanda, İNK sədrinin müavini, “Təzadlar” qəzetinin baş redaktoru Asif Mərzili, İNK baş katibi, YYS İB sədri Aydın Xan Əbilovun və digər nümayəndələrinin Türkiyə Cümhuriyyətinə rəsmi səfərə getməklərinin əsas səbəbini, məqsəd və məramını açıqladı.

Qeyd olundu ki, nümayəndə heyəti Türkiyənin Kahramanmaraş şəhərində yaradılan və qardaş ölkədə sayca ikinci Xocalı soyqırımı parkının, eləcə də parkda ucaldılan “Ana Fəryadı” heykəlinin açılış mərasimində iştirak edəcək, ondan sonra nümayəndə heyəti 12 fevral tarixində qardaş Türkiyənin Kahramanmaraş şəhərində ermənilər tərəfindən türklərin soyqırımına məruz qalması münasibətilə keçirilən tədbirdə də iştirak edəcək. Tədbirdə Xocalı soyqırımına həsr olunmuş rəsmi elmi-praktik konfrans, layihə tanıtımı və genosidə həsr olunmuş kitabların təqdimat mərasimi və ictimai dinləmələr də baş tutacaq. Tədbirdə iştirak edən media nümayəndələrinin tədbirin təşkilatçısı Rasim müəllimə ünvanladıqları çoxsaylı suallar cavablandırıldı.

Tədbirdə professor Əsədulla Qurbanov, Xalq artisti, Flora Kərimova, “Təzadlar” qəzetinin baş redaktoru Asif Mərzili, tanınmış şair Oqtay Rza, şəhid ailələri və çoxsaylı KİV nümayəndələri iştirak edirdilər.

Tədbirin sonunda Oqtay Rza xocalılılara həsr etdiyim “Bu qan yerdə qalmayacaq” adlı şeirini oxudu.

Din xadimi Mir Kazım Ağa sabah yola düşəcək nümayəndə heyətinə Allah-Təaladan uğurlu yol arzuladı.

**Məhəmməd VƏLİYEV,**
**“Respublika”.**
**S.MƏMMƏD (foto).**

# Azərbaycanlı və gürcü gənclər, siyasətçilər Tbilisidə parlamentin binası qarşısında etiraz aksiyası keçiriblər

**Gürcüstanda yaşayan azərbaycanlılar fevralın 8-də paytaxt Tbilisidə, parlamentin binası qarşısında etiraz aksiyası keçiriblər.**

AZƏRTAC xəbər verir ki, aksiyada gürcü xalqının nümayəndələri - siyasətçilər, tələbə gənclər də iştirak ediblər.

Aksiyanın təşkilatçılarından olan Sevinc Hümbətova bildirib ki, Gürcüstan ərazisində separatçı bir nəfərə abidə qoyulması təxribatdır. Bu addım Gürcüstan-Azərbaycan münasibətlərinə ziyan vurmaq məqsədi daşıyır. Bu abidənin qoyulması, eyni zamanda, Gürcüstan dövlətinə qarşıdır və biz bu büstün tezliklə götürülməsini tələb edirik.

Gürcü politoloq Simon Kopadze çıxışında deyib ki, aksiyanın məqsədi yalnız Mixail Avaqyanın büstünün qoyulmasına qarşı deyil, separatçılığa, terrora və torpaqlarımızın işğalına qarşı etiraz etməkdir. Siyasətçi Gürcüstanda separatçının büstünün qoyulmasını təxribat adlandırıb və abidənin götürülməsini tələb edib.

Politoloq, tarixçi alim Quram Marxuliya da çıxışında M.Avaqyanın əlinin günahsız azərbaycanlı uşaq, qadın və qocaların qanına batdığını vurğulayıb. Bildirib ki, Axalkalakidə büstün qoyulması Gürcüstan-Azərbaycan dostluğuna qarşı yönəlib.



Gürcüstan parlamentinin deputatı Azər Süleymanov deyib: “Gürcüstan özü də separatizmdən əziyyət çəkir. Gürcüstanda separatçılığın təbliği, separatçıların qəhrəmanlaşdırılıb onlara abidələrin qoyulması qəbuledilməzdir. Gürcüstan azərbaycanlıların vətənidir və vətəndə separatçıya abidə qoyulmamalıdır”.

Aksiyada digər çıxış edənlər Gürcüstanın Axalkalaki rayonunun Buğaneş kəndində erməni terrorçu, Abxaziyada gürcülərə, Dağlıq Qarabağda azərbaycanlılara qarşı qatı cinayətlər törətmiş Mixail Avaqyana abidə qoyulmasına kəskin etirazlarını bildirib, büstün tez bir zamanda götürülməsini tələb ediblər.

İştirakçılar “Təxribatçılar, əlinizi Gürcüstan-Azərbaycan dostluğundan çəkin!”, “Separatçı Mixail Avaqyanın büstü götürülsün!”, “Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti deyil!”, “Separatçılığa və separatçılara YOX!”, “Gürcüstan-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir!” şüarlarını səsləndiriblər.

Tbilisi şəhər meriyası aksiyanın keçirilməsinə rəsmi şəkildə icazə verib.

Aksiya zamanı heç bir qarşıdurma qeydə alınmayıb.

**AZƏRTAC**

# Regionların inkişafı üçüncü Dövlət Proqramı İsmayıllıya hansı nailiyyətləri verdi?

(əvvəli 2-ci səhifədə)

Kənd təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi, fermerlərlə işgüzar əlaqələrin qurulması, dövlət tərəfindən mineral gübrələrin alınması və dənli bitkilər əkini üçün verilmiş imtiyazların vaxtında hər bir aidiyyəti ünvana çatdırılması da əhalinin məşğulluğunun artırılmasına və iş yerlərinin açılmasına şərait yaradır. Ümumi məhsul istehsalının 95 milyon 758 min manatının kənd təsərrüfatının payına düşməsi deyilən fikri tam olaraq təsdiq edir. Bir neçə rəqəmə diqqət yetirməklə İsmayıllıda kənd təsərrüfatının artan templə inkişafını aydın görə bilirik: Dənli-paxlalı bitkilər üzrə məhsul istehsalı 2014-cü ildə 83620 ton, 2015-ci ildə 104894 ton, 2016-cı ildə 102203 ton, 2017-ci ildə 106643 ton, 2018-ci ildə isə 104796 ton təşkil edib. Hektarın məhsuldarlığı da illər üzrə artıb və 28,4 sentnerdən 35-36 sentnerə çatıb. Dəmyə şərait üçün bu respublika üzrə ən yüksək göstəricidir. Taxılçılığın intensiv artımı məqsədilə aparılan aqrotexniki tədbirlərə əsaslanıb inamla demək olar ki, bu son hədd deyildir. Ənənəvi təsərrüfat sahələrinin inkişafına və bərpasına diqqət artıb. Rayon ərazisində 2088 hektar yeni fındıq bağı salınıb, baramaçılığın inkişafı məqsədilə 27 min ədəd tut tingi əkilib, 41,7 ton quru tütün istehsal olunub. Yeni təsərrüfat sahələrinin inkişafı kənd sakinlərinin məşğulluğu ilə yanaşı, onların gəlirlərinin artmasına da səbəb olub. Kartof istehsalında əldə olunan nəticələr daha diqqətəlayiqdir. 2014-cü ildəki 6576 tonla 2018-ci ildəki 104 min 15 tonu müqayisə etmək istehsaldakı artım tempinin reallığını əks etdirir.

2014-2018-ci illərdə "İsmayıllı şərab-1" şərab zavodu, "Buta" aqroparkı, Keyvəndi kəndində 1000 başlıq maldarlıq kompleksi, şəhərin kənarında 240 min başlıq quşçuluq fabriki, "Yaşıl market" kənd təsərrüfatı məhsullarının satış mərkəzi, Qubaxəlilli kəndində 200 başlıq heyvandarlıq kompleksi, Tircan kəndi ərazisində 400 başlıq mal-qara kökəltmə ferması, Topçu kəndində fermer mağazası və digər aqrar profilli istehsal-emal-satış müəssisələri açılıb. Diyallı kəndində yeni maldarlıq kompleksinin inşası başa çatdıqdan sonra heyvandarlıqda istehsal göstəriciləri daha da artacaqdır.

Turizmin inkişafı ilə bağlı rayonda ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Ərazidə 2014-cü ildə 23 istirahət mərkəzi fəaliyyət göstərib. Hazırda bu göstərici 32-yə çatıb. Bundan əlavə, Lahıc qəsəbəsində, Talıstan kəndi ərazisində, Zərgəran kəndi yaxınlığında və rayon mərkəzində otel-istirahət mərkəzlərinin tikintisi aparılır.

Rayona 2014-cü ildə 96000, 2015-ci ildə 99540, 2016-cı ildə 101755, 2017-ci ildə 104760, 2018-ci ildə isə 105823 nəfər turist gəlmişdir. 2014-2018-ci illər ərzində rayona gələn turistlərin 150 mindən çoxunu xarici turistlər təşkil edib. Aqrar turizmin inkişafında Hacıhətəmli kəndi ərazisində yaradılmış "SATO - Monolit" üzüm istehsalı və emalı müəssisəsi əhəmiyyətli rol oynayır. "Xoşbəxt-X" MMC xalça emalatxanasında turistlər xalçaçılıq sənəti ilə yaxından tanış olurlar. Burada yaradılmış Xalça muzeyində ipək xalçalar turistlərin diqqətini daha çox cəlb edir. Qalacıq kəndində xalçaçılarla "Ailə Biznesinə Asan Dəstək" layihəsinin əməkdaşlarının görüşü təşkil olunub. Xalça toxunması üçün lazım olan materiallar toxuculara verilib. "ABAD" xidmətlə əməkdaşlıq hazırda da davam etdirilir.

**İsmayıllı rayonu 2014-2018-ci illər üzrə bəzi iqtisadi göstəricilər**

| | | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| Ümumi Məhsul Buraxılışı | min man | 182035 | 163296 | 178530 | 236424 | 257554 |
| Ondan adambaşına düşən ÜMB | manat | 2179,2 | 1952,2 | 2095,5 | 2755,3 | 2969,4 |
| ÜMB-dan | | | | | | |
| Sənaye | min man | 4558 | 4713,7 | 6688,8 | 7601,6 | 9140,7 |
| Kənd təsərrüfatı | min man | 72949 | 81890,7 | 80121 | 92529,5 | 95757,8 |
| Tikinti-quraşdırma | min man | 61570,2 | 28730,4 | 35078,3 | 70943,6 | 85371,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | min man | 2835,1 | 3004,2 | 3151,3 | 3260,6 | 3251 |
| İnformasiya və rabitə | min man | 733,5 | 770,5 | 801 | 880,8 | 971,1 |
| Ticarət xidmətləri | min man | 39389 | 44186,3 | 52689,5 | 61207,4 | 63062,4 |
| Əsas kapitala investisiya | min man | 64968,4 | 31323,5 | 37397,2 | 85275,6 | 91713,8 |
| O cümlədən qeyri- dövlət | min man | 32978,6 | 8909,7 | 6218,8 | 51843,5 | 53381,1 |
| **Adambaşına investisiya** | manat | 778,1 | 371,1 | 438,9 | 993,9 | 1068,9 |
| **Yeni iş yerlərinin sayı** | vahid | 1112 | 720 | 1032 | 1071 | 1096 |
| O cümlədən daimi iş yerləri | vahid | 1032 | 495 | 1032 | 1071 | 816 |
| İşsizliyin səviyyəsi | %-lə | 4,91 | 4,96 | 5,04 | 4,96 | 4,70 |

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə bağlı görülən işlərin təhlilini apardıqca bir daha yəqin edirik ki, bölgəmizin yüksəlişi, ölkənin sürətli inkişafına rayonumuzun inamla qovuşması Dövlət Proqramının məsuliyyətli icrasının nəticəsidir. Bütün qüvvələr və imkanlar da bu istiqamətdə davamlı olaraq səfərbər edilir.

Yüksələn iqtisadi göstəricilər son nəticədə insanların mənəvi dünyasının zənginləşməsinə, rifahının yüksəlməsinə, dövlətçilik mövqeyinin daha da möhkəmlənməsinə, cavabdehliyinin və məsuliyyətinin artmasına, ideoloji-siyasi fəaliyyətin obyektivliyinə və düzgünlüyünə, vətənpərvərliyinə, qarşıya qoyulan vəzifələrin icrası üçün bacarıqla təşkilatlanmasına və digər çoxsaylı vacib keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Gənclərlə işin dövlət siyasətinin tələbləri səviyyəsində qurulması - "Gənc təsərrüfatçılar məktəbi"nin, ingilis dili və dizayner kurslarının təşkili, xüsusilə Dövlət Humanitar və Texnologiya Kollecinin açılması, Peşə Tədris Mərkəzinin işinə dəstək verilməsi, gənclərin ardıcıl olaraq təşkilatlanması və onların daha layiqlilərinin məsul işlərə irəli çəkilməsi gəncliyi Dövlət Proqramının həyata keçirilməsində əsas qüvvəyə çevirir. Onu da qeyd etməyi vacib sayıram ki, İsmayıllı Rayon İcra Hakimiyyəti Prezident İlham Əliyevin xalqın xidmətçisi olmaq tapşırığını, sərəncam, göstəriş və tövsiyələrini məsuliyyətlə yerinə yetirir, hər bir məsələnin icrası üçün məsuliyyəti öncə özündə görür. Əvvəldə qeyd etdiklərim də məhz belə bir mövqenin arzuolunan nəticəsidir.

"Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası İsmayıllıya çox şey verib. Onların hamısını bu yazıda əks etdirmədik. Dördüncü Dövlət Proqramının həyata keçirilməsi üçün müəyyənləşdirilmiş tədbirlərin müzakirəsi zamanı üçüncü Proqramın uğurları daha geniş miqyasda təhlil olunacaqdır. Başa vurulan yol gediləcək yol üçün əsasdır, zəmindir və doğru istiqamətdir. İsmayıllılılar bu istiqamətdə inamla gedəcək və sosial-iqtisadi inkişafda yüksək nəticələrə çatacaqlar.

# Azərbaycan İlahiyyat İnstitutunun birillik fəaliyyəti ilə bağlı tədbir təşkil olunub

**Bu günlərdə Azərbaycan İlahiyyat İnstitutu özünün (AİI) birillik fəaliyyətinə həsr edilmiş tədbir təşkil edib.**

AİI-nin kollektivi ilk öncə Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidəsinin önünə əklil qoyaraq xatirəsini yad ediblər.

İnstitutun birillik fəaliyyətinə həsr olunmuş tədbirdə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, millət vəkili Fazil Mustafa, Bakı Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev, Avropa Yəhudiləri İcmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian İcmasının sədri Robert Mobili, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri, dini icmaların rəhbərləri və digər məsul şəxslər iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan mərasimdə AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov çıxış edərək AİI-nin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradıldığını, İnstitutun yaradılmasında məqsədin Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək olduğunu bildirib.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərindən bəhs edən C.Məmmədov ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasətin hazırda onun layiqli varisi cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O bildirib ki, AİI-nin yaradılması dövlət-din münasibətlərinə, milli-mənəvi dəyərlərə qayğının ən böyük göstəricilərindən biridir.

AİI rektoru ötən bir il ərzində institutun gördüyü işlər, həyata keçirdiyi fəaliyyət istiqamətləri, həmçinin hədəfləri haqqında məlumat verərək deyib: "Azərbaycan İlahiyyat İnstitutu fəaliyyətə başladığı qısa vaxt ərzində İnstitutun formalaşması istiqamətində zəruri tədbirlər həyata keçirilərək ali təhsil müəssisəsi tədris ilinə hazırlıq səviyyəsinə gətirilib. İnstitutun Dinşünaslıq və İslamşünaslıq ixtisasları üzrə təhsil standartları Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edilmiş və Nazirliyin müvafiq şöbəsindən müsbət rəy alınmışdır. Azərbaycan İlahiyyat İnstitutunda hazırda bir fakültə, 3 kafedra mövcuddur. Azərbaycan İlahiyyat İnstitutunun yaranmasında əsas məqsədlərdən biri müasir dövrümüzün tələblərinə cavab verən, zəngin dünyagörüşünə, dərin dini və dünyəvi biliklərə, güclü şəxsiyyətə malik mütəxəssislərin yetişdirilməsidir . Belə mütəxəssislər yetişdirmək üçün bir çox layihələr həyata keçirir, diskussiyalar, yarışlar, konfranslar, təlimlər təşkil edir, dünya və qonşu ölkələrin təcrübələrindən bəhrələnir, tələbələrimizin - gələcəyin ilahiyyatçılarının savadlı, kamil mütəxəssis kimi yetişmələri üçün var qüvvəmizlə çalışırıq".



Sonra institutun birillik fəaliyyətini yüksək qiymətləndirərək Azərbaycanda dövlətin himayəsi altında dini təhsil verən belə bir institutun yaradılmasına ehtiyac olduğunu bildirən DQİDK sədri Mübariz Qurbanlı deyib: "Ümid edirəm ki, İlahiyyat İnstitutu yüksəkixtisaslı kadrların hazırlanması üçün əlverişli təhsil mühiti yaradacaq. Gənclərimizin hər hansı bir ölkəyə din təhsili almağa getməsinin qarşısı alınacaq. Dini məbədlərimiz yüksəkixtisaslı din xadimləri ilə təmin olunacaq".

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov Azərbaycanın din sahəsində uğurlu siyasət həyata keçirdiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb: "Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır. Bu gün Azərbaycandan dünyaya dini tolerantlıqla bağlı ciddi mesajlar verilir. Azərbaycanda gəncləri başqa dini cərəyanlara cəlb etmək istəyən qüvvələr vardır. Bu baxımdan, dini təhsil mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə İlahiyyat İnstitutunun üzərinə mühüm vəzifələr düşür".

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev də İlahiyyat İnstitutunun yaradılmasını ölkəmiz üçün xeyli əhəmiyyətli hadisə kimi qiymətləndirib.O, xüsusilə son illərdə dünyada gedən gərgin siyasi proseslərin fonunda bu qərarın doğru və yerində olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Bakı Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein bildirib ki, hazırda cəmiyyətimizdə dini təhsilə böyük tələbat vardır. Bu gün dini təhsil almış insanlara ehiyac olduğunu qeyd edən A.İşein İnstitutun Azərbaycanın dini həyatında xidmətləri olacaq layiqli məzunlar yetişdirəcəyini vurğulayıb.

Bakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev çıxış zamanı Azərbaycanın müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanındığını, Azərbaycan İlahiyyat institutunun yaradılması ilə Azərbaycanda bu dəyərləri qoruyan və təbliğ edən din xadimləri yetişəcəyini qeyd edib.

Tədbirdə çıxış edən millət vəkili Fazil Mustafa milli düşüncəyə sahib, dövlətçiliyimizə bağlı olan və kənar təsirlərdən uzaq din sahəsində mütəxəssislərə ehtiyac olduğunu bildirərək deyib: "İnstituta ilk qəbul prosesi də göstərdi ki, bu sahəyə insanların marağı və tələbatı vardır. Sağlam və müasir dünyagörüşlü pedaqoqların fəaliyyət göstərdiyi institutun Azərbaycan cəmiyyətində dini maarifçiliyin inkişafında əhəmiyyətli rolu olacağına inanırıq."

Tədbirdə çıxış edən Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü, AİI rəhbərliyi yanında İctimai Nəzarət Şurasının sədri Əliməmməd Nuriyev istər İslam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyin keşiyində duran yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması baxımından AİI-nin fəaliyyətini yüksək qiymətləndirib.

Avropa Yəhudiləri İcmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian İcmasının sədri Robert Mobili, Gürcü Yəhudilərinin Bakı Dini İcmasının sədri Abik Çaruxçev tədbirdə çıxış edərək, AİI-nin yaranması və fəaliyyətinin birilliyi münasibətilə İnstitut heyətini təbrik ediblər. Natiqlər yeni təhsil müəssisəsinin quruculuğu sahəsində görülən işləri təqdir edərək, AİI rəhbərliyinin və kollektivin bu böyük məsuliyyətin öhdəsindən uğurla gələcəyinə əminliyini ifadə ediblər.

Tədbirin sonunda Azərbaycan İlahiyyat İnstitutunun bir illiyi ilə bağlı "Dəyərlərin izi ilə" sənədli filmi nümayiş olunub.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

Son günlərdə dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Dövlət Sərhəd Xidməti tərəfindən bir sıra uğurlu əməliyyatlar keçirilmiş, 21 kq 775 qram narkotik vasitənin, 261 ədəd psixortop həb və 175 ml narkotik tərkibli məhlulun dövlət sərhədindən qaçaqmal qismində qanunsuz keçirilməsinin qarşısı alınmış, bu cinayət əməllərinin iştirakçısı olan 2 nəfər şəxs həbs olunaraq cinayət məsuliyyətinə cəlb edilmişdir. Belə ki, 3 halda İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd edən 4 nəfər naməlum şəxsin qarşısı alınmış, sərhəd pozucuları sərhəd naryadlarının qanuni əmrlərinə tabe olmamış və qaçaqmalı sərhədboyu zolaqda ataraq geri qaçmışlar. O cümlədən, 3 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin Astara rayonunun Alaşa kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 1 nəfər naməlum şəxsin hərəkəti müşahidə olunmuş və "dayan" əmri verilmişdir. Sərhəd pozucusu əlindəki bağlamaları əraziyə ataraq geriyə qaçmışdır. Ərazidə aşkar olunmuş 4 ədəd bağlamada 3 kq 80 qram "kokos", 1 kq 55 qram "tiryək", 105 qram "marixuana", həmçinin 190 ədəd "tramol 225" markalı həb, 175 ml "mydrax" markalı narkotik tərkibli məhlul aşkar edilərək götürülmüşdür.

4 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun 2-ci Şahsevən kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 1 nəfər naməlum şəxsin qarşısı sərhəd naryadı tərəfindən alınmışdır. Sərhəd naryadı "dayan" əmri verərək havaya xəbərdarlıq atəşi açmış, sərhəd pozucusu tabe olmamış, əlindəki bağlamanı əraziyə ataraq geri qaçmışdır. Bağlamada 10 kq 115 qr "heroin" narkotik vasitəsi və 1 ədəd "Blo□ 2003 mini" markalı tapança aşkar edilərək götürülmüşdür.

Elə həmin tarixdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində 2 nəfər naməlum şəxsin hərəkətini aşkar edən sərhəd naryadı tərəfindən "dayan" əmri verilmiş, lakin sərhəd pozucuları tabe olmayaraq geriyə qaçmışlar. Ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilmiş, nəticədə 2 ədəd çantanın içərisində 6 kq 670 qr "kokos", 390 qr kristal şəklində narkotik maddə olan "heroin", 360 qr "marixuana" və 71 ədəd "psixotrop həb" aşkar edilərək götürülmüşdür.

Narkotik vasitələrin sifarişçilərinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2 nəfər Azərbaycan Respublikasının vətəndaşı Füzuli rayonunun Böyük-Bəhmənli kənd sakinləri 1976-cı il təvəllüdlü Həsənov Seymur İbiş oğlu və 1977-ci il təvəllüdlü İsmayılov Ramil Ulduz oğlu saxlanılmışlar.

Qeyd olunan faktlar üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

* * *

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir.

DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlərdə dövlət sərhədini pozmağa cəhd edərkən 2 Şri-Lanka, 1 Özbəkistan, 1 Azərbaycan Respublikası vətəndaşları, həmçinin dövlət sərhədinin pozulması ilə əlaqədar cinayətlərin iştirakçısı olan 1 Şri-Lanka və 3 Azərbaycan Respublikası vətəndaşları saxlanılmışdır. Belə ki, 15 yanvar tarixində Heydər Əliyev Beynəlxalq Aeroportunda "Bakı-London" reysi ilə uçmağa hazırlaşan Şri-lanka vətəndaşları 1972-ci il təvəllüdlü Subramaniyam Rasenthiram və 1999-cu il təvəllüdlü Siththirasekaram Panusam sənədlərin rəsmiləşdirilməsi zamanı təqdim etdikləri Böyük Britaniyaya məxsus vizaları saxta olduğundan saxlanılmışlar. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxta sənədlərin əldə olunması, düzəldilməsi, istifadəsində şübhəli bilinən Şri-Lanka vətəndaşı 1982-ci il təvəllüdlü Sivangnanam Kirusanthan və onunla əlbir olan Azərbaycan vətəndaşları 1986-cı il təvəllüdlü Mövlayev İlqar Dilqəm oğlu, 1983-cü il təvəllüdlü Ağalarov Ramazan Mirtalıb oğlu və 1993-cü il təvəllüdlü Piriyev Şahin Əhmədağa oğlu saxlanılmışlar.

18 yanvar tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin xidməti ərazisində Qusar rayonunun Samur qəsəbəsinin ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Azərbaycandan Rusiya istiqamətində dövlət sərhədini pozmağa cəhd edərkən Şəmkir rayon sakini 1990-cı il təvəllüdlü Alıoğlu Orxan Famil oğlu sərhəd pozucusu qismində saxlanılmışdır. 20 yanvar tarixində eyni ərazidən və eyni istiqamətdə dövlət sərhədini pozmağa cəhd edərkən Özbəkistan vətəndaşı 1951-ci il təvəllüdlü Nurmakhammadov Ramazon Nurmahammad oğlu sərhəd pozucusu qismində saxlanılmışdır. Hər iki şəxsin üzərində Rusiya Federasiyasından deportasiya olunması barədə arayışlar aşkarlanmışdır.

Saxlanılan şəxslər barəsində cinayət işi başlanılmışdır, müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş alətlərin kalibrlənməsi xidmətinin "Kotirovka sorğusu" üsulu ilə satınalınmasına dair müsabiqədə "Geoid" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 04.02.2019-cu il tarixdə ƏDV daxil 15930,00 (on beş min doqquz yüz otuz manat 00 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**



TƏKRAR

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 7 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi

Açıq Tender elan edir

Tender 1 lot üzrə keçirilir.

Lot-1. Deratizasiya, Dezinseksiya və Dezinfeksiya işlərinin görülməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Şəmkir şəhəri, Nizami küçəsi 53 ünvanından (əlaqələndirici şəxs: Hüseynov Təyyar, telefon: 0223053214, 0503045059) ala bilərlər.

Hesab:
AZ97AİİB32051019444700201147
VÖEN: 8501297151
KAPİTAL BANK ASC Şəmkir f-ı
KOD: 200479
Vöen: 9900003611
Müxbir hesab:
AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AİİBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir. Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 5 mart 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə 14 mart 2019-cu il saat 17:00-dək möhürlənmiş ikiqat zərfdə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 mart 2019-cu il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.


# Azercell növbəti dəfə "Socially devoted" sertifikatına layiq görülüb

Telekommunikasiya bazarında liderliyini qoruyan Azercell, müştəri xidmətləri sahəsində də innovativ ideya və həll yolları ilə hər zaman seçilir. 2018-ci ilin IV rübündə Azercell-in sosial şəbəkədə göstərdiyi aktivliyi "Socialbakers" şirkəti tərəfindən dəyərləndirilib və Azercell "Socially devoted" sertifikatına layiq görülüb. Beləliklə, "Socialbakers" şirkətinin apardığı araşdırmaya əsasən, Azercell rəsmi Facebook səhifəsində istifadəçilərin ünvanlandırdığı sualları operativ şəkildə cavablandıraraq, 99% nəticə əldə edib. Nəzərinizə çatdıraq ki, 2012-ci ildə "Facebook" səhifəsində nümayiş etdirdiyi fəaliyyətə görə, Azercell ölkədə "Socially devoted" adına layiq görülmüş ilk mobil operator olub.

Qeyd edək ki, "Azercell Telecom" MMC ölkəmizdə sosial şəbəkələrdə rəsmi səhifə və onlayn rejimdə çalışan müştəri xidmətləri yaradan ilk mobil operatordur. Bu yeniliklərin tətbiqində şirkətin məqsədi abunəçilərlə daha sıx əlaqənin qurulması, onlara tətbiq etdiyi yeniliklər, tarif və kampaniyalar, keçirilən sosial layihələr və xidmətlər haqqında ən son xəbərlərin operativ çatdırılmasıdır. Hazırda Azercell abunəçiləri Facebook, Twitter, Disput.Az, Google+, YouTube və İnstagram sosial şəbəkələrinin imkanları vasitəsilə yüksək keyfiyyətli xidmətdən yararlana bilir. Sosial şəbəkələrdə abunəçilər şirkətlə əlaqə qurub, ən qısa zamanda ehtiyacı olan məlumatları əldə edib və müraciətlərinin həllini tapma imkanına malikdirlər.



